## Ermənilər Laçında mühəndis işləri aparan traktoru atəşə tutub

Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri görülüb



**Mayın 5-i saat 12:00 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Laçın rayonu ərazisində, şərti sərhəddə yerləşən üzbəüz mövqelərimizdə mühəndis işləri görən traktoru atəşə tutub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Azərbaycan Ordusunun qeyd olunan istiqamətdə yerləşən bölmələri tərəfindən cavab tədbirləri görülüb.



## Separatçılar Sərsəng su anbarını qurudur

**Separatçılar Tərtər rayonundakı Sərsəng su anbarını qurudublar.**

Onlar elektrik xətlərini sıradan çıxarıb, sudan suvarma üçün istifadə etmək mümkün olmayıb.

Bu da öz növbəsində təkcə su anbarı üçün deyil, ətraf ərazilər üçün də ekoloji fəlakət yarada bilər.


№ 78 (5839) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 may 2023-cü il (şənbə)




## Azərbaycanda koronavirus sönməyə doğru gedir

Yoluxan insanların böyük əksəriyyəti xəstəliyi yüngül keçirir, xəstəxanalara yatış sayı çox az saydadır

**Artıq ardıcıl olaraq onuncu həftədir ki, dünyada COVID-19-dan ölüm hallarının sayı 2020-ci ilin martından bəri müşahidə olunmayan səviyyədə qalır.**

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus Cenevrədəki mətbuat konfransında bildirib. Bu azalma tendensiyası ölkələrə normal həyata dönməyə, bütün dünyada səhiyyə sistemlərinə isə mümkün olan yoluxma hallarının yayılmasının və COVID-19-dan sonra fəsadların öhdəsində daha yaxşı gəlməyə imkan verib.

(səh.6)



## Tuğ kəndində ilk yaşayış məhəlləsinin təməli qoyuldu

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Füzuli rayonlarına səfər ediblər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Xocavənd və Füzuli rayonlarına səfər ediblər.**

Dövlət başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verilib. Prezident İlham Əliyev burada İnzibati Mərkəzin və ilk yaşayış məhəlləsinin təməlini qoyub.

(səh.2)

## Mövlud Çavuşoğlu Vaşinqton danışıqları ilə maraqlandı

Türk nazir Ceyhun Bayramovla Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə son danışıqları müzakirə ediblər




**Mayın 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mevlüt Çavuşoğlu arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə bildiriblər ki, telefon danışığı zamanı xarici işlər nazirləri Azərbaycanla Türkiyə arasında gündəlikdə duran ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə mövcud regional vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.

Nazirlər həmçinin Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsi üzrə aparılmış son danışıqları müzakirə ediblər.

Tərəflər telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə toxunublar.

# ABŞ tərəfləri sülhə yaxınlaşdırdı

Moskva prosesə kölgə salmasa tezliklə nəticə olacaq



**Mayın 1-dən ABŞ-nin Arlinqton şəhərində Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla erməni həmkarı Ararat Mirzoyan arasında davam edən danışıqlar dünən də davam etdirilib.**

Nazirlər Vaşinqtonda ABŞ dövlət katibi Entoni Blinken və prezidentin köməkçisi, milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla da görüşüblər.

Amerika rəsmiləri hazırkı vəziyyətlə bağlı fikirlərini bölüşüblər, münasibətlərin normallaşması ilə bağlı mövcud məsələlərə dair mövqelərini bildiriblər. Vurğulanıb ki, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında İkitərəfli saziş layihəsinin bəzi maddələri üzrə qarşılıqlı razılıq əldə olunub.

(səh.3)

# Müharibə Rusiyanı komaya salıb

Ölkədə böhran çox ciddi mərhələyə qədəm qoyub




**"Kremlə pilotsuz təyyarələrin hücumu düşmənçilik aktıdır. Rusiya buna konkret addımlarla cavab verəcək".**

Bunu Rusiyanın Xarici işlər naziri Sergey Lavrov bildirib. O deyib ki, bu, açıq-aydın düşmənçilik hərəkəti idi: "Tamamilə aydındır ki, Kiyev terrorçuları "sahiblərinin" xəbəri olmadan bunu törədə bilməzdilər. Biz hadisəyə, bunun kazus belli olub-olmaması barədə danışmaqla deyil, konkret addımlarla cavab verəcəyik".

Lavrov Ukrayna başçısı ilə danışıqların başlanma ehtimalından da söz açıb.

(səh.4)



## "Respublikada belə bir rekord olmayıb"

Ağstafadan Bakıya yürüş edən atlet "Şərq"ə danışıb

**Ağstafanın Səməd Vurğun qəsəbəsinin sakini, 34 yaşlı atlet Ağa Qəzənfər oğlu Əliyev rayondan Bakı şəhərinə qədər 466 kilometr məsafəni qət etməklə rekorda imza atmağı düşünür. O, bu yürüşünü Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edib.**

Dörd gündür ki, yolda olan atlet artıq Bakıya çatmaq üzrədir.

Ağa yürüşə davam edərkən "Şərq"lə həm söhbət olub.

(səh.3)

## Vəfat edən olmayıb

Daha 29 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 29 yeni yoluxma faktı qeydə alınıb, 46 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 831 511 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 821 070 nəfər müalicə olunaraq sağalıb, 10 254 nəfər vəfat edib, aktiv xəstə sayı 187 nəfərdir.

*Ölkədə son sutka ərzində 656, hazırkı dövrədək isə 7 595 306 test aparılıb.*

## Valideynlərin narahatlığına əsas yoxdur

Monitorinqin nəticələri şagirdlərin qiymətlərinə, yuxarı sinfə keçmələrinə mane olmayacaq



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinin III siniflərində monitorinq keçiriləcək. İdarənin məlumatında bildirilir ki, BŞTİ-nin Təhsilin keyfiyyətinə nəzarət sektoru və Təlimə Dəstək Mərkəzinin təşkilatçılığı ilə monitorinq 17 may 2023-cü il tarixində təşkil olunacaq.

Monitorinq Azərbaycan və rus bölmələrində tədris dili, riyaziyyat və ingilis dili fənləri üzrə aparılacaq.

(səh.3)



## 700 bal yoxdursa, dünya dağıldı?

Məleykə Abbaszadə: "290 baldan yuxarı nəticə göstərən şəxslər 300 bal toplayanlardan pedaqoji nöqteyi-nəzərdən fərqlənmir"

(səh.2)



Eldəniz Əmirov

## Ölkədə dollar bolluğu yaranıb

Bu, daha çox quru yollarının bağlı qalması və ticarətin zəifləməsi ilə bağlıdır

(səh.4)

# Tuğ kəndində ilk yaşayış məhəlləsinin təməli qoyuldu

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Füzuli rayonlarına səfər ediblər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Xocavənd və Füzuli rayonlarına səfər ediblər. Dövlət başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verilib. Prezident İlham Əliyev burada İnzibati Mərkəzin və ilk yaşayış məhəlləsinin təməlini qoyub.**

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirib ki, Agentlik Tuğda təqdim etdiyi turizm konseptual yanaşma çərçivəsində üç istiqamətdə layihələrin həyata keçirilməsini planlaşdırır. Qeyd olunub ki, ilk mərhələdə Tuğ kəndində keçmiş məktəb binası olmuş yaşayış korpusunun konservasiyası nəzərdə tutulur. Kəndin tarixi memarlığı dərindən öyrənildikdən və kifayət qədər yerli memarlıq üslubunda elmi-tədqiqat və elmi təhlillər, praktiki təcrübə qazanıldıqdan sonra bu abidənin bərpası layihəsi həyata keçirilə bilər. Çünki Tuğda ənənəvi Azərbaycan memarlığına işğal dövründə çox müdaxilə edilib və bəzi tikililər açıq-aşkar vandalizmə məruz qalıb. Buna görə də ilkin olaraq ümumi sahəsi 1464 kvadratmetr olan tikililərin konservasiyası və konsolidasiyası işləri ilə yanaşı, 6515 kvadratmetrlik ətraf ərazisinin abadlaşdırılması nəzərdə tutulur. Bundan başqa, kəndin mərkəzi hissəsində yerləşən, ümumi sahəsi 450 kvadratmetr olan mövcud tarixi tikililərin bərpa edilərək Turizm İnformasiya Mərkəzi və şərab dequstasiya yeri kimi istifadə edilməsi nəzərdə tutulur. Tuğ kəndinə gələcəkdə turizm axını ilə əlaqədar burada keyfiyyətli xidmətlərin göstərildiyi iaşə obyektinin yaradılması nəzərdə tutulur. Diqqətə çatdırılıb ki, Kulinariya Təlim Mərkəzi təkcə Qarabağın deyil, bütün Azərbaycan mətbəxinin turistlərə təbliğ və eksperimental kulinariya metodlarının tətbiq edildiyi məkanlardan biri olacaq. Tikilinin tərkibində qruplar və heyətlər üçün mətbəx, qəbul, dequstasiya otaqları nəzərdə tutulur. Həmçinin Tuğ kəndinin Şuşa yolu üzərində vacib turizm destinasiyası olması faktı nəzərə alınaraq, burada avtomobil dayanacağı da yaradılacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Tuğ kəndində İnzibati Mərkəzin təməlinin qoyulması mərasimində də iştirak ediblər. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və birinci xanıma ilkin mərhələdə Tuğ kəndinin ictimai-inzibati mərkəzində inşası planlaşdırılan binalar barədə məlumat verib. Bildirilib ki, kənddə 1,63 hektar sahəni əhatə edəcək inzibati zonada ikimərtəbəli inzibati bina, klub icma və mədəniyyət mərkəzləri, restoran tikiləcək. Burada tikiləcək və bərpa ediləcək



binaların ümumi sahəsi 3200 kvadratmetr olacaq. Ərazidə genişmiqyaslı abadlıq işlərinin görülməsi, yerüstü parkinq sahəsinin yaradılması nəzərdə tutulub. Bu ərazilərə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. İnzibati mərkəzdə tikinti-bərpa işlərinin gələn ilin martında başa çatdırılması nəzərdə tutulur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlqoyma mərasimində də iştirak ediblər. Dövlət başçısı Füzuli-Hadrut avtomobil yolunun 12,3 kilometrlik hissəsinin açılışını edib, Dədəli kəndinin təməlini qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən Füzuli yaşayış kompleksində aparılan inşaat işləri ilə tanış olub, Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlqoyma mərasimində iştirak ediblər. Dövlət başçısına və birinci xanıma Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikintisi barədə məlumat verilib. Prezident "Azərişıq" ASC-nin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışını da edib. Dövlət başçısı və birinci xanım Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə tikilən məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar. Sonra Prezident İlham Əliyev Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoyub.

Mayın 5-də Hadrut qəsəbəsində Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Hadrut qəsəbəsinin turizm inkişaf konsepsiyası barədə məlumat verilib. Dövlət başçısına və birinci xanıma Hadrutda turizmin inkişaf etdirilməsi üçün Dövlət Turizm Agentliyi tərəfindən ilk növbədə qəsəbənin tarixi hissəsində mərkəzi məhəllənin bərpasının və abadlaşdırılmasının nəzərdə tutulduğu bildirilib. Qeyd olunub ki, Hadrutun tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Məhz bu hissədə bərpa və konservasiya işləri gələcəkdə Hadrutda aparılacaq tarixi tikililərin bərpa işləri üçün ilkin təcrübə olacaq və digər işlər bu təcrübəyə əsaslanaraq aparılacaq. Məlumat verilib ki, bu xristian məbədi Hadrutun tarixi hissəsinin əsas memarlıq abidəsidir. Qafqaz Albaniyası dövründə həmin məbəd müxtəlif dövrlərdə bir neçə dəfə bərpa edilib. Məbəd sonuncu dəfə 1621-ci ildə bərpa olunub. Bu məbədin divarlarında daha qədim dövrdə tikilmiş abidənin daşlarından istifadə edilib. Buna görə də Qafqaz Albaniyası dövrünə aid məbəd və onun ətrafında Dövlət Turizm Agentliyi tərəfindən bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur. Çünki işğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib.

Azərbaycan Prezidentinə və birinci xanıma Turizm Məlumat Mərkəzi barədə də məlumat verilib. Qeyd olunub ki, Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün bərpa edilərək, Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi nəzərdə tutulur. Mərkəzdə Hadruta gələn ilk turist qruplarına qəsəbə və ətraf kəndlərdəki turizm obyektləri haqqında məlumat veriləcək. Turizm Məlumat Mərkəzi iki hissədən ibarət olacaq. Birinci hissə turistlərin qəbulu sahəsi, ikinci hissə isə turizm işçiləri üçün ofis kimi nəzərdə tutulur.

Hadrut qəsəbəsində inzibati mərkəzin təməlqoyma mərasimi də keçirilib. Dövlət başçısına və birinci xanıma layihə barədə məlumat verilib. Bildirilib ki, inzibati zonanın ümumi sahəsi 4,2 hektardır. Buraya inzibati bina, bələdiyyə binası, mədəniyyət mərkəzi və infrastruktur qurumlarının ofislərinin binaları daxildir. Qəsəbənin inzibati ərazisinə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. Yol və kommunikasiya xətlərinin ümumi uzunluğu 1100 metr olacaq. Hadrut qəsəbəsinin inzibati ərazisinin tikintisinin 2024-cü ilin martında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Deyib ki, uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Yolun hərəkət hissəsinin eni 14,5 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Dövlət başçısının tapşırığına əsasən, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolun üzərindəki 6 körpünün tikintisi başa çatıb. Yol boyunca 18 avtobus dayanacağı quraşdırılıb. Yeni avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək. Qeyd edək ki, bu yol Azərbaycan Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamına əsasən inşa olunur.

"Hadrut" qovşaq yarımstansiyası və İdarəetmə Mərkəzi də istifadəyə verilib. "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Qeyd edək ki, yeni inşa edilən "Hadrut" qovşaq yarımstansiyasının təməli 2021-ci il oktyabrın 9-da Prezident İlham Əliyev tərəfindən qoyulub. Bildirilib ki, "Şükürbəyli", "Hadrut" və "Şuşa" yarımstansiyaları arasında yaradılan 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olan 35/0,4 kV-luq 2x1600 kVA gücündə yeni "Hadrut" qovşaq yarımstansiyası Hadrut qəsəbəsində qurulacaq müxtəlif təyinatlı infrastrukturun elektrik enerjisinə tələbatını ödəyəcək. Həmçinin yeni qovşaq yarımstansiyası Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərin elektrik təchizatının etibarlılığını və dayanıqlılığını təmin edəcək. Yarımstansiyada Rəqəmsal Elektrik Şəbəkələrinin İdarəolunması Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına zəmin yaradacaq. Zərurət yaranarsa, "Hadrut" qovşaq yarımstansiyası vasitəsilə Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının da elektrik enerjisi ilə təchiz etmək mümkün olacaq. Prezident İlham Əliyev yarımstansiyanı işə salıb. Kompleksin Regional Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. Mərkəz təlim-tədris zalından və təlim poliqonundan ibarətdir. Burada, həmçinin xüsusi dayaqlarda şəbəkədə istifadə edilən element və ləvazimatlar qurulub.

**İsmayıl**

# 700 bal yoxdursa, dünya dağıldı?

## Məleykə Abbaszadə: "290 baldan yuxarı nəticə göstərən şəxslər 300 bal toplayanlardan pedaqoji nöqteyi-nəzərdən fərqlənmir"



**Dövlət İmtahan Mərkəzi açıq suallara görə növbəti illərdə buraxılış imtahanlarının vaxtının artırılıb-artırılmayacağına aydınlıq gətirib.**

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, buraxılış imtahanlarının müddəti standartlara uyğun müəyyən edilib: "Elə suallar var ki, orta hesabla onlara 1-2 dəqiqə vaxt lazımdır. Təbii ki, açıq suallar daha çox vaxt aparır. Lakin elə qapalı suallar var ki, orada heç bir dəqiqə belə tələb olunmur, həmin suallı 1 saniyədə cavablandırmaq mümkündür. Məsələn, sual olunur ki, qonşu bucaqlar hansılardır? Bu suala baxan kimi cavab vermək olar. Burada hesablama aparmaq tələb olunmur. Bu halda həmin suala ayrılan vaxt digər suallara sərf oluna bilər".

DİM sədri qeyd edib ki, şagirdlərin biliyini daha dərindən qiymətləndirmək üçün buraxılış imtahanlarını iki mərhələdə keçirmək olar: "Lakin hazırda buna ehtiyac yoxdur. Hazırkı modellə biz uşaqların bilik səviyyələrini qiymətləndirə bilirik. Növbəti mərhələ qəbul imtahanları mərhələsidir. Buraxılış imtahanlarının sualları necə standartlara uyğun hazırlanmışdısa, qəbul imtahanları da bu şəkildə təşkil olunacaq", - deyə o bildirib.

Məleykə Abbaszadə vurğulayıb ki, bu il XI sinif buraxılış imtahanlarının ilkin təhlili göstərir ki, nəticələr keçənilki nəticələrlə təxminən eyni səviyyədədir.

O bildirib ki, Elm və Təhsil Nazirliyi tabeliyindəki liseylərin məzunlarının orta nəticəsi 177 bal olub: "Bu, kifayət qədər yüksək nəticədir. Hərbi liseylərin nəticələri ölkənin orta göstəricisindən də yüksəkdir. Təbii ki, peşə məktəblərinin nəticələri aşağıdır. Bu da gözlənilən mənzərədir. Nəticələri təhlil edəndə, hansısa bir hadisəni götürüb ümumi fikir söyləmək istəyirmiz yoxdur. Burada müxtəlif növ məktəblərin, eyni şəraitdə olan məktəblərin nəticələrinin necə olduğuna baxmaq lazımdır. Bunu təhlil edib gələcək addımlarımızı ona uyğun ataq ki, bütün məktəblərdə təlim-tədris prosesi elə qurulsun ki, ümumiyyətlə ölkə üzrə nəticələr yüksək olsun".

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri digər bir mövzuya da toxunub: "700 bal yoxdursa, dünya dağıldı? Xahiş edirəm ki, bu fikirlərdən uzaqlaşın. Ümumiyyətlə, 290 baldan yuxarı nəticə göstərən şəxslər 300 bal toplayanlardan pedaqoji nöqteyi-nəzərdən fərqlənmir".

O qeyd ki, onların bilik səviyyəsi, demək olar ki, eynidir.

"Hansısa texniki məsələyə görə, hansısa bir problemə görə abituriyentlər tam şəkildə 300 balı toplamayıblar. Bu, təsadüfdür. Ola da bilər, olmaya da. Əsas odur ki, 200-dən, 290 baldan yuxarı nəticə göstərənlərin sayı çox olsun", - deyə Məleykə Abbaszadə qeyd edib.

DİM sədri bildirib ki, builki məzunlar arasında təxminən 800 nəfər xarici dildən 100 faiz nəticə göstərib: "Riyaziyyatdan 100 faiz nəticə göstərən təxminən 600 nəfər var. Onlar misal üçün, riyaziyyatdan 100 faiz nəticə göstərirlərsə, ola bilsin, ana dilindən 85 faiz nəticə göstərirlər. Onlar yaxşı, bacarıqlı uşaqlardır. Onların nəticələri həm bizim təhsil standartlarına, həm də beynəlxalq standartlara cavab verir".

**Aygün**



# Hulusi Akar İrəvanı xəbərdar edir

## Sülhün yubadılmasının Ermənistan üçün ağır nəticələri olacaq

**Türkiyənin müdafiə naziri Hulusi Akarın Ermənistan-Azərbaycan münasibətlərinə dair məqaləsi dərc olunub.**

Akar qələmə aldığı məqalədə Bakı ilə İrəvan arasında sülhə olan ümidlərin söndüyünə diqqət çəkib. General vurğulayıb ki, cəbhə xəttində Ermənistan və Azərbaycan qoşunları arasında təsadüfi atışmalar və gərginlik, o cümlədən tərəflərin sülh razılaşması əldə etmək üçün uğursuz cəhdləri narahatlıq doğurur. Vəziyyət qeyri-sabitdir: "2020-ci ildə üçtərəfli Atəşkəs Bəyannaməsinin imzalanması ilə qızıl fürsət yarandı və bu, Ermənistanın Azərbaycan ərazilərinin otuz illik işğalına son qoydu. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın fevralda Türkiyəyə səfəri kimi son hadisələr də bizi ruhlandırırdı. Bununla belə, münaqişə indi dondurulsa da, sülh prosesi uzandıqca yenidən hərbi əməliyyatların baş verməsi təhlükəsi artır". Lakin Akarın sözlərinə görə, çətinliklərə baxmayaraq, Türkiyə uzun müddət dinc yanaşı yaşama tarixinə malik olan türk və erməni xalqlarının dostluq və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan münasibətlər qura biləcəyinə inamında sarsılmaz olaraq qalır: "Əgər regionda və ondan kənarda olan ölkələr dünyaya töhfə vermək qərarına gəlsələr, bu, mühüm siyasi və iqtisadi nəticələrə gətirib çıxaracaq. Türkiyə istərdi ki, üçüncü dövlətlər, o cümlədən Qərbdəki müttəfiqləri bu baxışı formalaşdırmağa kömək etsinlər, ya da heç olmasa, tarixi fərqləri siyasiləşdirmək və düşmənçiliyi davam etdirmək cəhdlərindən çəkinsinlər".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Türkiyənin müdafiə naziri Hulusi Akarın İrəvanla Bakı arasında yeni eskalasiya təhlükəsinin olduğunu bildirməsi Ermənistana xəbərdarlıq mahiyyəti daşıyır:** "Akar sülh sazişinin imzalanmasının yubanmasının yeni münaqişə riskini deyib. Nikol Paşinyanın və ətrafının "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazırdır" və "Ermənistanın qonşularına ərazi iddiaları yoxdur" tipli açıqlamaları azdır. İrəvan sülh sazişini imzalamağa hazır olmalıdır. Hulusi Akar İrəvanı xəbərdar edir ki, məsələnin yubadılmasının Ermənistan üçün ağır nəticələri olacaq".

**İsmayıl**

# Səfir Cahit Bağçı səs verdi

## Türkiyə seçkiləri ilə bağlı Azərbaycanda səsvermə başlayıb





**Mayın 14-də Türkiyədə keçiriləcək prezident və parlament seçkiləri üçün ölkənin Azərbaycanda yaşayan və işləyən vətəndaşlarının səsverməsi başlayıb. Türkiyənin Azərbaycandakı səfirliyində yaradılmış seçki məntəqəsi mayın 5-dən səsverməyə açılıb. İlk növbədə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı səs verib:**

"Dünən Türkiyədə keçiriləн seçkilərlə əlaqədar olaraq Azərbaycanda vətəndaşlarımızın səsvermə prosesi başlayıb. Bakıda, Naxçıvanda və Gəncədə məntəqələr qurulub. Seçkilərin millətimizə xeyirli, uğurlu olmasını diləyirəm". Səfirliyin məlumatına əsasən, Türkiyədən kənarda daimi və ya müvəqqəti yaşayan, səsvermə hüququna malik vətəndaşların Azərbaycanda səs verə bilməsi üçün bütün hazırlıqlar görülüb. Qeyd edək ki, Türkiyə vətəndaşlarının Azərbaycanda səs verə bilməsi üçün Yüksək Seçki Qurumunun qərarına əsasən, 5-6-7 may tarixlərində Bakıda 9, Gəncədə 3, Naxçıvanda da 3 ədəd olmaqla cəmi 15 seçki qutusu qurulacaq və bu tarixlərdə saat 9:00-21:00 arasında 12 saat ərzində fasiləsiz şəkildə səsvermə keçiriləcək.

Türkiyənin Naxçıvanda olan Baş konsulu Asip Kaya da səs verib və birinci mərhələdə səsvermənin mayın 8-dək davam edəcəyini söyləyib. Vurğulayıb ki, seçkilər ikinci mərhələyə qalarsa, bu mərhələ üçün səsvermə isə 20-22 may tarixlərində keçiriləcək: "İlk olaraq, seçkilər ölkəmiz üçün xeyirli-uğurlu olsun. 2014-cü ildən bəri xarici ölkələrdə yaşayan türk vətəndaşları səsvermə hüquqlarından istifadə edirlər. Artıq bu onların 6-cı səsverməsidir. Xaricdə yaşayan 3 milyondan çox Türkiyə vətəndaşının səsverməsi gözlənilir. Ölkəmiz tərəfindən 73 ölkədə 151 təmsilçiliyimizdə məntəqə yaradılıb. Hətta təmsilçiliyimiz olmayan ölkələrdə belə sandıqlar quraşdırılıb. Digər yerlərdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da Türkiyə vətəndaşlarının səs verməyi üçün Baş konsulluqda məntəqə yaradılıb. Səsvermə 3 gün səhər saat 9-dan axsam 9-dək davam edəcək. Naxçıvanda 1350 türk vətəndaşının səs verməsi gözlənilir".

Türkiyənin Gəncə şəhərindəki Baş konsulu Recep Öztop deyib ki, nəticələr 14 mayda Türkiyədə səsvermə tamamilə bitdikdən sonra açıqlanaraq hesablanacaq: "Dünəndən etibarən Türkiyədə Prezident və parlament seçkiləri ilə bağlı qardaş Azərbaycanda səsvermə başlayıb. Ölkə üzrə 11 minə yaxın vətəndaşımız səsvermə haqqına sahibdir. Göründüyü kimi, vətəndaşlarımız səsvermədə aktiv iştirak edirlər. Builki səsvermədə seçicilərin aktivlik faizinin əvvəlki illərə nisbətən artacağı təxmin edilir". Konsul əlavə edib ki, ölkə üzrə qeydiyyatda olan bütün Türkiyə vətəndaşları istədikləri nümayəndəlikdə səs verə bilərlər. Öztop qeyd edib ki, seçki məntəqələrində 5 nümayəndə olmaqla, müşahidəçilər üçün bütün lazımi şərait yaradılıb.

**İsmayıl**



# ABŞ tərəfləri sülhə yaxınlaşdırdı

## Moskva prosesə kölgə salmasa tezliklə nəticə olacaq

**Mayın 1-dən ABŞ-nin Arlinqton şəhərində Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla erməni həmkarı Ararat Mirzoyan arasında davam edən danışıqlar dünən də davam etdirilib. Nazirlər Vaşinqtonda ABŞ dövlət katibi Entoni Blinken və prezidentin köməkçisi, milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla da görüşüblər.**

Amerika rəsmiləri hazırkı vəziyyətlə bağlı fikirlərini bölüşüblər, münasibətlərin normallaşması ilə bağlı mövcud məsələlərə dair mövqelərini bildiriblər. Vurğulanıb ki, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında İkitərəfli saziş layihəsinin bəzi maddələri üzrə qarşılıqlı razılıq əldə olunub. Buna rəğmən, əsas məsələlər üzrə mövqelərin fərqli olaraq qaldığını qəbul ediblər. Hər iki nazir Ermənistan və Azərbaycan arasında danışıqlara ev sahibliyi etdiyinə görə ABŞ tərəfinə minnətdarlıqlarını bildiriblər. ABŞ dövlət katibi Entoni Blinken də deyib ki, gərgin və konstruktiv ikitərəfli və üçtərəfli müzakirələrdən sonra tərəflər çətin məsələlərdə mühüm irəliləyiş əldə ediblər. Onun sözlərinə görə, hər iki tərəf münasibətlərin normallaşdırılmasına səmimi sadiqlik nümayiş etdiriblər. ABŞ-nin Azərbaycandakı sabiq səfiri Metyu Brayza bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyan sülh sazişinin imzalanmasını istəyir, ancaq qorxur. Brayza 1999-cu ildə Ermənistan parlamentində baş verənləri xatırladıb: "Paşinyanı dəstəkləyənlər sülh istəyirlər. Paşinyanı dəstəkləməyənlər, müxalifət isə əksini istəyir. Ermənistanda yenidən müharibə, təxribat törətməyə cəhd edənlərin olacağı istisna deyil".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev "Şərq"ə açıqlamasında deyib ki, Rusiya ABŞ-nin təşəbbüsü və vasitəçiliyi ilə Vaşinqtonda keçirilən görüşü hörmətdən salmağa**

### Vaşinqton razılaşmanı birbaşa Azərbaycan və Ermənistanın üzərinə buraxır

**çalışır. Partiya rəhbərinin sözlərinə görə, Moskva prosesi aşağılamaq, kiçiltmək və özlərini qiymətə mindirmək istəyir:** "Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında aparılan danışıqların çox ciddi nəticəyə hesablandığını demək olar. ABŞ bu məsələdə "biz etdik" iddiası ilə çıxış etmir. Vaşinqton çalışır ki, məsələ dövlətlərarası münasibətlərin qurulması haqqında anlaşma kimi müzakirə olunsun və proses inkişaf etdirilsin. Mühüm bir məsələ ondan ibarətdir ki, Rusiya tərəfi Azərbaycan və Ermənistan arasındakı bütün görüşlərdə ancaq fərqlilikləri qabartmaqla məşğul olub. Məhz bu təftişçilik tərəflərin ortaq məxrəcə gəlməsinə maneçilik törədir. Rusiya bundan yanadır. ABŞ isə daha çox oxşarlıqları ortaya qoyur. Hansı məsələlərdə anlaşmalar mümkündürsə, onları gündəmə çıxarır. Artıq bəzi məsələlərdə razılaşmaların olduğu deyilir. Amerikalı rəsmilər hesab edirlər ki, normal danışıqların davam etdirilməsi, tətanınması və s. məsələlərə çox az təmas edirdi. İndi bu məsələlər gündəmdədir və Qarabağın "statusu" kimi söhbətlər gündəmə gətirilmir. Azərbaycan da bunu istəyirdi. Düşünürəm ki, prinsipial məsələlərdə razılıq olsa, detalları həll etmək mümkün olacaq. Gələn həftə Ermənistan Baş naziri Nikol Paşinyanın Moskva görüşü gözlənilir. Həmçinin mayın ortalarında Azərbaycan və Ermənistan XİN rəhbərləri bir araya gələcəklər. Adətən Qərbin vasitəçiliyi ilə keçirilən görüşlərdən sonra Rusiya mütləq bir görüş təşkil edir. Moskva prosesə kölgə salmaqda, yaxud "insiyativ məndədir" deməkdə maraqlıdır. Amma Rusiyanın vasitəçiliyinə artıq heç kim ciddi yanaşmır. Hələ Azərbaycana münasibəti bir kənara qoyaq. Ukraynada dinc əhalini qıran işğalçı bir dövlətin nə cür vasitəçiliyi ola bilər?! Əslində Kreml də fərqindədir ki, bu məsələ onun əlindən çıxıb, sadəcə imkan qədər əlində saxlamağa çalışır. Rusiya ilə yanaşı İran da Azərbaycan və Ermənistan arasında sülhün alınmamasında, gecikməsində maraqlıdır. Ancaq görünən odur ki, ABŞ bu məsələdə ciddi səy göstərir. Ermənistan tərəfi çəkingən davranması, proseslər pozitiv inkişaf edə bilər. Rusiyanın əlində qalan yeganə rıçaq erməni millətçilərindən istifadə etməklə təxribata əl atmaqdır. Lakin bunlar son çırpıntılardır. Mən ABŞ-də başlayan prosesin davam edəcəyinə və nəticə olacağına inanıram".

masların olması belə özlüyündə uğurdur. Rusiya bütün məsələlərdə "üçtərəfli anlaşma", "üçtərəfli saziş" ifadələrini önə çəkərək mütləq şəkildə özünü tərəf kimi ortaya qoyur. Amerika isə məsələyə "ikitərəfli danışıqlar" kimi baxır, sadəcə "ev sahibi" kimi yanaşır və görüşlərdə birbaşa iştirak etmir. Hətta bəyanatlar da vermir. Rusiyada olan danışıqlarda ya XİN başçısı S.Lavrov, ya da qurum sözçüsü M.Zaxarova tərəflərdən əvvəl bəyanatlar verirlər. Vaşinqton bu məsələni Azərbaycan və Ermənistanın üzərinə buraxır. Bu, çox ciddi məsələdir".

F.Quliyev vurğulayıb ki, ABŞ-dakı görüşlərdə yeni çalarlar ondan ibarətdir ki, Amerika heç vaxt bu qədər Azərbaycanın dilində danışmayıb: "ABŞ sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyünün

İsmayıl Qocayev

# Mətbuat xidmətlərnin rəhbərləri üçün təşkil edilən master-klasın iştirakçılarına sertifikatlar təqdim olunub



**Media Təhlil Mərkəzinin (MTM) Heydər Əliyev Mərkəzi, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA), ADA Universitetinin dəstəyi və MAS MMC-nin texniki köməkliyi ilə dövlət, qeyri-hökumət və digər təşkilatların mətbuat xidmətlərinin rəhbərləri üçün təşkil etdiyi üç günlük master-klas başa çatıb.**

3-5 may tarixlərində ADA Universitetində keçirilən beynəlxalq təlimin iştirakçıları müsahibələr yolu ilə fərqli və peşəkar müzakirələrə qoşulub, sosial media təşəbbüslərinin inkişaf etdirilməsi ilə bağlı praktiki sessiyalarda iştirak ediblər. Master-klasın sonunda iştirakçılara sertifikatlar təqdim olunub. Sertifikatların təqdimetmə mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Media Təhlil Mərkəzinin Baş direktoru Vüqar Xəlilov və Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov iştirak ediblər.

Təlimlə bağlı təəssüratlarını bölüşən Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin müdiri Aynur Kərimova söyləyib ki, bu formatda ustad məşğələlərinin keçirilməsi rəsmi kommunikasiyanın daha peşəkar səviyyədə qurulmasına yardımçı olacaq, beynəlxalq standartlar və təcrübələrlə tanış olmağa imkan yaradır: "Bu tip master-klaslar mövcud fəaliyyətin daha da yüksək səviyyədə qurulmasına yardımçı olur. Bizə bu şansı yaratdığına görə Heydər Əliyev Mərkəzinə, Media Təhlil Mərkəzinə, Medianın İnkişafı Agentliyinə və ADA Universitetinə minnətdarlığımı bildirirəm".

Maliyyə Nazirliyinin İctimaiyyətlə əlaqələr və vətəndaş müraciətləri ilə iş şöbəsinin müdiri Mayis Piriyev qeyd edib ki, təlimin əhəmiyyəti olduqca böyükdür. Onun sözlərinə görə, media ilə dövlət qurumları arasında düzgün kommunikasiyanın aktuallığı kəsb etdiyi və yeni yanaşmaların, yeni çağırışların ön plana çıxdığı bir dönəmdə qabaqcıl beynəlxalq media modellərinin öyrənilməsi, bu cür təlimlərin keçirilməsi bu sahədə professional mühitin yaranmasında mühüm rol oynayır: "Bu, həm də kommunikasiyaya məsul şəxslər kimi bizlərin praktik bilik və bacarıqlarımızı artırır. Əminəm ki, bu cür faydalı dialoq, müterəqqi format ölkəmizdə yeni mərhələyə keçid almış media və kommunikasiya islahatlarına töhfə verəcək, müxtəlif qurumlar arasında kommunikasiya sahəsində ünsiyyətin dinamikliyini artıracaq, mediaya məsul şəxslərin kommunikasiya işində məsuliyyətini və bu sahədə media vasitələri ilə sıx işləmək bacarıqlarını, peşəkarlığını daha da təkmilləşdirəcək".

AYNA-nın İctimaiyyətlə əlaqələr və media ilə iş departamentinin direktoru Pərvanə Əliyevanın fikrincə, təlimlər şəxsi inkişaf və müasir standartlara cavab verən idarəetmə bacarıqlarına yiyələnmək baxımından çox səmərəli olub: "Həm nəzəri, həm də praktik sessiyalarda beynəlxalq mütəxəssislər böhran vəziyyətlərinin effektiv kommunikasiyasında öz təcrübələrini bizimlə bölüşdülər. Ünsiyyət, informasiyanın təqdim edilməsi və kommunikasiya sahəsində müasir trendlərlə tanış olduq. Düşünürəm ki, təlimin praktik olması əldə etdiyimiz yeni biliklərin gündəlik işimizə tətbiqində faydalı olacaq. Şübhəsiz ki, indi öyrəndiklərimiz ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyətimizin keyfiyyətini daha da artıracaq".




# "Respublikada belə bir rekord olmayıb"

## Ağstafadan Bakıya yürüş edən atlet "Şərq"ə danışıb

**Ağstafanın Səməd Vurğun qəsəbəsinin sakini, 34 yaşlı atlet Ağa Qəzənfər oğlu Əliyev rayondan Bakı şəhərinə qədər 466 kilometr məsafəni qət etməklə rekorda imza atmağı düşünür. O, bu yürüşünü Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edib.**

Dörd gündür ki, yolda olan atlet artıq Bakıya çatmaq üzrədir.

**Ağa yürüşə davam edərkən "Şərq"lə həm söhbət olub.**

Müsahibəni təqdim edirik:

**- Əvvəla özünüz haqda oxucularımıza məlumat verərdiniz...**

- Ağstafa rayon Səməd Vurğun qəsəbəsinin sakiniyəm. Vurğun qəsəbəsində Dost MMC-də sosial işçi kimi fəaliyyət göstərirəm. 20 ildən çoxdur atletika ilə məşğulam. Respublika üzrə ikinci yerdəyəm. İdman üzrə nailiyyətim var. Bakı marafonunun iştirakçısıyam. Türkiyədə keçirilən 42 kilometrlik İstanbul marafonunda Azərbaycan üzrə ikinci olmuşam. Türkiyədən də 100-lüyə düşmüşəm.

**- Necə oldu ki, yürüşə başlamaq qərarı verdiniz?**

- Heydər Əliyevin 95 illiyində də bu təşəbbüsü etmək istəyirdim, lakin icazə vermədilər. Mən də cənab Prezidentə müraciət etdim, sağ olsun, buna əsasən Atletika Federasiyasına göstəriş verildi.

**- İndi haradasınız?**

- Hazırda Hacıqabul yolundayam. Dörd gündür, yoldayam. Planlaşdırmışam ki, yürüşün beşinci günündə Bakıya çatacam. Dediyim kimi olsa, sabah 8-də Bakıya çatacağam. Allah verdiyi gücdür ki, gənclərə bir örnək kimi edirəm. Nə etmək lazımdırsa, bunu gəncliklə həyata keçirməliyəm. Əziyyət çəkməlisən.

**- Harada gecələyirsiniz, qidalanmanı necə həll edirsiniz?**

### "Təcili Tibbi Yardım maşını, polis də yolboyu mənə nəzarət edir. Nəqliyyatdan istifadə etməmişəm"



- Qidalanma, hotel xərcləri dövlət tərəfindən qarşılanır. Təcili Tibbi Yardım maşını, polis də yolboyu mənə nəzarət edir. Nəqliyyatdan istifadə etməmişəm. Federasiya nümayəndələri, Leyla Şıxlinskaya klinikasının əməkdaşları məni müşayiət edirlər. Ağstafadan Bakıya qədər mənimlə irəliləyirlər. Bu vaxta qədər səhhətimdə heç bir problem yaranmayıb.

Məndən olsa, gecə də davam edərdim. Lakin 5 gün vaxt verilib. Özümü yormaq istəmirəm ki, Bakı marafonunda da iştirak edim. Yoxsa bu yolu 3-4 günə fadan Şuşaya piyada getmək istəyirəm. Ağstafadan ora qədər 350 kilometrlik yoldur. Haradasa 3 günə yolu qət etməyi nəzərdə tuturam. Qardaş Türkiyənin 100 illik yubileyi münasibətilə cənab Prezidentimiz icazə versə, ora qədər də getmək istəyirəm. Haradasa Azərbaycandan Türkiyəyə 2200 kilometrdir. Fikirləşirəm ki, Ginnesin Rekordlar kitabına da Azərbaycandan çox məsafəli qaçış üzrə adımı yazdırım.

Qaçan olub, 1070 kilometri qət edib. Mən isə 1071 kilometr getsəm, Azərbaycan bayrağını rekordlar kitabına saldıraram.

qət edə bilərəm.

**- Bu addımınızı ailəniz necə qarşıladı?**

- Ailəm çox gözəl qarşıladı. Bilirlər ki, 20 ildir, ömrümü bu idman növünə həsr etmişəm. Gənclərə bir nümunədir.

Ataların bir sözü var: - İgid ölər, adı qalar. Var-dövlət boş şeydir. Hacı Zeynalabdin Tağıyev demiş, adama ad qalacaq.

Mənə nazirlikdən, federasiyadan bildirildi ki, respublikada belə bir rekord olmayıb.

**- Başqa hansı planlarınız var?**

- Şəhidlərimizin əziz xatirəsini yad etmək məqsədilə noyabr ayında Ağsta-

Samirə Ərəblinskaya

# Valideynlərin narahatlığına əsas yoxdur

## Monitorinqin nəticələri şagirdlərin qiymətlərinə, yuxarı sinfə keçmələrinə mane olmayacaq



"Məqsəd şagirdlərin biliklərə yiyələnmə səviyyəsini, müəllimlərin də öyrətmə qabiliyyətini müəyyənləşdirməkdir"

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinin III siniflərində monitorinq keçiriləcək. İdarənin məlumatında bildirilir ki, BŞTİ-nin Təhsilin keyfiyyətinə nəzarət sektoru və Təlimə Dəstək Mərkəzinin təşkilatçılığı ilə monitorinq 17 may 2023-cü il tarixində təşkil olunacaq.**

Monitorinq Azərbaycan və rus bölmələrində tədris dili, riyaziyyat və ingilis dili fənləri üzrə aparılacaq. Təhsilalanlara tədris dili üzrə 15, riyaziyyat fənni üzrə 15, xarici dil üzrə isə 10 sual olmaqla, ümumilikdə 40 sual təqdim olunacaq. Sualların cavablandırılması üçün 90 dəqiqə vaxt veriləcək. Qeyd edək ki, monitorinqin keçirilməsində əsas məqsəd təhsilalanlarda müvafiq standartlar üzrə bilik və bacarıqların hansı səviyyədə formalaşdığını müəyyən etmək, ibtidai təhsil səviyyəsində keyfiyyətin artırılması istiqamətində tədbirlər görmək, şagirdlərin gələcək inkişafına və müəllimlərin peşəkarlığının təkmilləşməsinə dəstək olmaqdan ibarətdir.

**Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında qeyd etdi ki, bu cür monitorinqlər (imtahanlar) son illərdə keçirilir, məqsəd də aydındır:**

- Elm və Təhsil Nazirliyi də analoji monitorinqi orta məktəblərin IV sinifləri üzrə iyunun 10-da keçirəcək. IV sinifdə ibtidai təhsil mərhələsi bitir, təhsilin orta pilləsi başlayır. Bu monitorinqlər təhsilin ibtidai pilləsini bitirən şagirdlərin bilik və bacarıqlara nə dərəcədə yiyələndiyini müəyyən etmək məqsədi daşıyır. Nəticələr tədris prosesində hansı addımların atılmalı olduğunu da göstərir. Sonrakı addımlar üçün zəmin yaradır. BŞTİ-nin keçirəcəyi monitorinq də eyni qəbildəndir. III sinif şagirdlərin tədris proqramını nə dərəcədə mənimsəyə bildiklərini müəyyən etmək ibtidai təhsilin sonuncu pilləsi olan IV sinfə nə dərəcədə hazır olduqlarını üzə çıxaracaq. Monitorinqlər təkcə şagirdlərin bilik səviyyəsini deyil, ibtidai sinif müəllimlərinin də hansı bacarıqlara sahib olduğunu üzə çıxarır. Müəllimlər şagirdlərə bilik və bacarıqları nə dərəcədə aşılaya bilib, fənləri hansı dərəcədə tədris edə biliblər. Bu monitorinqlər həm şagirdlərin, həm də müəllimlərin səviyyəsini müəyyən edir.

**E.Əfəndi qeyd etdi ki, ibtidai sinif şagirdlərinin tədris ilinin sonunda monitorinqə cəlb edilməsindən valideynlər narahatlıq keçirməməlidir:**

- Məlumatda qeyd edildiyi kimi monitorinqin nəticələri şagirdlərin qiymətlərinə, yuxarı sinfə keçmələrinə mane olmayacaq. Monitorinqdə iştirak etməyən şagirdə qarşı heç hansı sərt tədbir də görülməyəcək. Məqsəd şagirdlərin biliklərə yiyələnmə səviyyəsini, müəllimlərin də öyrətmə qabiliyyətini müəyyənləşdirməkdir. Hesab edirəm ki, valideynlər narahatlıq keçirməməli, əksinə, övladlarının bilik səviyyəsinin müəyyənləşməsində maraqlı olmalıdırlar.

Məlahət Rzayeva

# Diplomatik gərginlik artır

## İran Azərbaycanın 4 diplomatını arzuolunmaz şəxs elan edib





**Səməd Seyidov:**
"Təəssüf ki, cənub qonşumuz arzuolunmaz mövqe sərgiləyir və kəskin addımlar atır"

**Tofiq Zülfüqarov:**
"Prezident çıxışında Azərbaycan-İran münasibətlərinə yetərincə aydınlıq gətirib, bundan artıq nəsə demək çətindir"

**Azərbaycanın İrandakı səfirliyinin və Təbriz şəhərindəki Baş Konsulluğunun dörd əməkdaşının İran tərəfindən arzuolunmaz şəxs elan edilməsi ilə bağlı məlumatlar yayılıb. Azərbaycan Xarici İşlər Nazirliyi məsələyə münasibət bildirib.**

*Nazirliyin mətbuat katibi Ayxan Hacızadə açıqlamasında yayılmış məlumatların yeni olmadığını deyib:*

"Məlum olduğu kimi, cari ilin aprel ayının əvvəlində İranın ölkəmizdəki səfirliyinin 4 əməkdaşı diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətlərə görə Azərbaycan hökuməti tərəfindən "persona non qrata" (arzuolunmaz şəxs) elan edilmişdi.

İran tərəfi öz növbəsində Azərbaycanın bu addımından bir neçə gün sonra, heç bir əsas olmadan və yalnız qarşılılıq prinsipini bəhanə gətirərək, ölkəmizin İrandakı səfirliyindən hələ yanvar ayında təxliyə olunmuş 2 nəfər əməkdaşı və Baş konsulluğun 2 nəfər əməkdaşını arzuolunmaz şəxs elan edib.

Ölkəmizə qarşı atılmış bu addım bir sıra problemlərin mövcud olduğu ikitərəfli münasibətlərə xələl gətirir", - XİN rəsmisi qeyd edib.

**AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov "Şərq"ə söyləyib ki, Azərbaycanla İran arasında münasibətlər hazırda heç zaman olmadığı qədər çox aşağı səviyyədədir**: "Vəziyyətin belə olması isə onlardan asılıdır. Çünki İran hələ də Azərbaycana təzyiq formasında siyasət yürüdür. Onlar bilməlidir ki, bu kimi addımlarla Azərbaycana təsir göstərmək mümkün deyil. Bunu nə qədər tez başa düşsələr, münasibətlər bir o qədər tez normal cərəyan etməyə başlayar.

Ona görə ki, qonşu ölkələrin əlaqələri sabit olsa, tərəflər bundan uğur qazanar. Təəssüf ki, cənub qonşumuz arzuolunmaz mövqe sərgiləyir və kəskin addımlar atır. Əminəm ki, bunun heç bir təsiri olmayacaq və Azərbaycan öz mövqeyində qalacaq. Təbii olaraq bu addımlar Azərbaycan-İran münasibətlərinə təsir göstərəcək. Ancaq heç kim rəsmi Bakı ilə təzyiq dilində danışmamalıdır".

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov isə deyib ki, rəsmi Tehran tərəfi gərginlik yaratmaqla öz məqsədlərinə çata bilməyəcək:** "Prezident çıxışında Azərbaycan-İran münasibətlərinə yetərincə aydınlıq gətirib. Bundan artıq nəsə demək çətindir. Azərbaycan gərginliyin tərəfdarı deyil və seçim İran tərəfindədir.

Lakin hesab edirəm ki, onlar da artıq bu mövqedən uzaqlaşırlar. Çünki gərginliklə heç nəyə nail ola bilməzlər".

**Nihat Müzəffər**



# Qarabağ sürətlə qurulur

## Prezident quruculuq işlərində həm də bir memar kimi iştirak edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Xocavənd və Füzuli rayonlarına səfər ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verilib.

Prezident İlham Əliyev burada İnzibati Mərkəzin və ilk yaşayış məhəlləsinin təməlini qoyub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsində tam orta məktəbin bərpa layihəsi ilə tanış olub, ilk yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin, "Hadrut" qovşaq yarımstansiyasının və Rəqəmsal İdarəetmə mərkəzinin açılışlarını edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlqoyma mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı Füzuli-Hadrut avtomobil yolunun 12,3 kilometrlik hissəsinin açılışını edib, Dədəli kəndinin təməlini qoyub.

Dövlətimizin başçısı və birinci xanım Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə tikilən məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

**Ölkə başçısının bir neçə gündür işğaldan azad olunmuş ərazilərə səfər etdiyini deyən Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev "Şərq"ə vurğulayıb ki, Prezidentin bu səfərlər zamanı hər bir rayonda təməlqoyma mərasimlərində şəxsən iştirak etməsi alqışalayiqdir:** "Şuşada keçirilən böyük tədbirdən sonra cənab Prezident işğaldan azad olunmuş ətraf rayonlara səfər edərək, nümunəvi bir fəaliyyət sərgiləyib. Görünən odur ki, ölkə başçısı bizim işğaldan azad olunan torpaqlarda həm Ali Baş Komandan, həm də bir memar kimi quruculuq işlərində bilavasitə iştirak edir. Bütün bu proseslərdə isə Birinci vitse-prezident Mehriban xanım Əliyeva, cənab Prezidentlə qoşa addımlayır".

U.Mirzəyevin sözlərinə görə, bu addımlar Azərbaycan insanını daha da ruhlandırır: "Hətta biz bir neçə gündən sonra çox gözəl bir hadisənin şahidi olacağıq. İnsanlarımız artıq ilk işğal olunan bölgələrdən biri Laçına qayıdış edəcəklər. Bu isə bizi çox fərəhləndirir. Digər tərəfdən, təkcə ölkə daxilindəki proseslərdə yox, beynəlxalq müzakirələrdə və sülh prosesinin həyata keçirilməsində Azərbaycan öz haqqını müdafiə edərək, işğalçı ölkənin sülh müqaviləsinə yaxınlaşmasına təsir göstərir".

**Nihat**

# Müharibə Rusiyanı komaya salıb

## Ölkədə böhran çox ciddi mərhələyə qədəm qoyub



"Vaqner"in rəhbəri ordunu, müdafiə nazirini, baş qərargah rəisini xəyanətdə ittiham edir

**"Kremlə pilotsuz təyyarələrin hücumu düşmənçilik aktıdır. Rusiya buna konkret addımlarla cavab verəcək". Bunu Rusiyanın Xarici işlər naziri Sergey Lavrov bildirib. O deyib ki, bu, açıq-aydın düşmənçilik hərəkəti idi: "Tamamilə aydındır ki, Kiyev terrorçuları "sahiblərinin" xəbəri olmadan bunu törədə bilməzdilər. Biz hadisəyə, bunun kazus belli olub-olmaması barədə danışmaqla deyil, konkret addımlarla cavab verəcəyik".**

Lavrov Ukrayna başçısı ilə danışıqların başlanma ehtimalından da söz açıb. Bildirib ki, Rusiya Zelenskinin sahibi ilə danışmağa hazırdır: "Zelenski marionetdir. Rusiya onun sahibi Qərblə danışmağa hazırdır, gec-tez bu baş verəcək". Qeyd edək ki, Kremlin Mətbuat xidməti mayın 3-də "Kiyev rejiminin Kremlə pilotsuz uçuş aparatları ilə zərbə endirməyə cəhd etdiyini" bildirmişdi. Moskva bu hərəkətləri "planlı terror aktı və Rusiya prezidentinin həyatına qəsd" kimi qiymətləndirmişdi. "Financial Times" nəşri də yazıb ki, Ukraynanın dronlarla Kremlə hücumu mümkündür. Nəşr öz mənbələrinə istinadən bu hücumu Rusiyanın özünün təşkil etməsi ilə bağlı versiyanı inandırıcı saymayıb: "Belə olan halda Moskva ölkəni qoruya bilmədiyini göstərmiş olardı ki, bu da Putinin nüfuzuna zərbə vurur". Qərbli diplomatlar da bildiriblər ki, əməliyyatın daxildən planlanması ehtimalı azdır: "Kiyevin Kremli vurmaq üçün vasitələri var. Ukraynanın dronlarla Rusiyaya əvvəlki hücumları da bu kimi zərbələrdən müdafiə olunmağın nə qədər çətin olduğunu göstərdi". Amerika kəşfiyyatndan sızan məlumata görə, Ukrayna Baş Kəşfiyyat İdarəsinin Moskvaya silsilə zərbələr endirmək niyyəti olub. Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib ki, Moskva ölkənin və onun rəhbərliyinin təhlükəsizli üçün bütün vasitələrdən istifadə etməyə hazırdır: "ABŞ ilə münasibətlər açıq silahlı münaqişə ərəfəsindədir, lakin Moskva bunun baş verməməsi üçün çalışır".

Ukrayna Silahlı Qüvvələrinin Şərq qruplaşmasının spikeri Sergey Çerevat "Vaqner" özəl hərbi şirkətinin sahibi İosif Priqojinin hərbi struktura mərmi verilişinin bərpa olunmayacağı təqdirdə, mayın 10-u Baxmut şəhərindəki mövqelərini tərk edərək arxa cəbhəyə çəkiləcəkləri ilə bağlı videomüraciətinə münasibət bildirib. O, Priqojinin açıqlamalarına baxmayaraq, Baxmutda hücumların davam etdiyini və "Vaqner"in canlı qüvvəsini sürətlə itirməsi və Rusiyada hərbi rəhbərliyindəki daxili qarşıdurmaların buna yol açdığını qeyd edib. Rusiyalı politoloq Sergey Markov deyib ki, Priqojin və Rusiya Müdafiə Nazirliyi, eləcə də Baş Qərargah arasındakı qarşıdurmada "Vaqner"in rəhbəri rus cəmiyyətinin əksəriyyəti tərəfindən dəstəklənir: "Üstəlik, rus ordusunun zabit və əsgərlərinin də əksəriyyəti Priqojin və onun komandasını dəstəkləyir. Onların hamısı mərmi və digər vacib ehtiyaclarla çox zəif təmin olunduğuna inanır. Amma subardinasiya məsələlərinə görə bunu birbaşa deyə bilmirlər. Sevinirlər ki, heç olmasa, onların düşündüklərini Priqojin yüksək səslə deyə bilir. Məsələni təcili olaraq Rusiya Təhlükəsizlik Şurası həll etməlidir". Qeyd edək ki, Priqojin Baxmutda ölən vaqnerçilərin cəsədləri fonunda silah çatışmazlığı ilə bağlı Rusiya müdafiə naziri və Baş Qərargah rəisinin ünvanına təhqirlər səsləndirib.

**Politoloq Turab Rzayev bildirib ki, Rusiyada dövlət böhranı özünün çox ciddi mərhələsinə qədəm qoyub. Analitikin sözlərinə görə, Priqojinin Rusiya ordusunun, müdafiə nazirini, baş qərargah rəisini birbaşa xəyanətdə ittiham etməsi bunun bariz sübutudur:** "Artıq ölkədə fərqli maliyyə-oliqarx strukturları, inzibati vahidlər, güc strukturları öz ordularını yaratmağa, mərkəzi hakimiyyətdən avtonom olmağa çalışır. Mərkəzi hakimiyyət nəzarəti itirir, hərc-mərclik artır. Müharibənin əvvəlində ən aktiv iştirakçısı olan, xüsusi şəkildə mediada, sosial mediada rus ordusunun, əslində isə çeçen ordusunun uğurlarını paylaşan Kadırovun müharibə mövzusundan tamamilə uzaqlaşması da, Rusiya Federasiyasının gələcəyi ilə bağlı qeyri-müəyyənliyin olmasına bağlamaq olar. Müharibənin ən aktiv iştirakçıları olan "kadırovçı"lardan artıq xəbər-ətər yoxdur. Ramzan özü də müharibənin gedişatı ilə bağlı o qədər də açıq danışmır. Çeçen lideri Qafqaz dağlarına çəkilərək öz ordusunu qoruyur, böyük ehtimalla Rusiyada qaçılmaz görünən gələcək müharibələrdə lazım olacaq insan gücünü indi boşuna tükətmək istəmir. Ukrayna kampaniyasının gedişində gərginləşən ordu-vaqner münasibətləri artıq açıq qarşıdurmaya keçmiş oldu. Buna qədər də "Vaqner" ordunu İzyüm və Liman şəhərlərinin itirilməsinə görə ittiham edirdi. Maraqlıdır ki, burada Priqojinin mövqeyi Kadırov ilə üst-üstə düşür".

**T.Rzayev əlavə edib ki, bir çoxları bunu Rusiya hakimiyyəti daxilindəki kəşfiyyat-ordu rəqabətinin gün üzünə çıxması kimi dəyərləndirirdi:** "Amma vəziyyət sadə rəqabətdən daha da qəliz görünür. Artıq Rusiyada bir yox, bir neçə ordu var. Mərkəzi hakimiyyətin zəifləməsi fonunda çoxordulu ölkələrdə hadisələrin potensial inkişaf planı çoxlarına az-çox bəllidir. Rusiya cəmiyyəti 9 mayda Qələbə bayramında ordudan Baxmutun alınması ilə bağlı qələbə xəbəri gözləyir. Priqojin 10 mayda Vaqnerin Baxmutu tərk edəcəyini deyir. Səbəb silah çatışmazlığıdır. Ukrayna müharibəsi Rusiyanı komaya salıb. Komadan çıxa bilməsi sual altındadır".

**İsmayıl**



# Ölkədə dollar bolluğu yaranıb

## Bu, daha çox quru yollarının bağlı qalması və ticarətin zəifləməsi ilə bağlıdır

**Dünyanın bir nömrəli valyutası statusunu daşıyan ABŞ dolları ətrafında maraqlı proseslər cərəyan edir. Beynəlxalq Valyuta Fondunun icraçı-direktoru Kristalina Georgiyevanın dünyanın bir saylı valyutası ilə bağlı açıqlamaları isə maliyyə sferasında müəyyən narahatlığa yol açıb. O bildirib ki, dünya dollardan tədricən imtina etməyə başlayıb.**

Kristalina Georgiyeva "Dollardan tədricən imtina var. Əvvəllər dollar ehtiyatların təxminən 70 faizini təşkil edirdisə, indi bu rəqəm 60 faizdən bir qədər aşağıdır" deyib. Onun sözlərinə görə, hazırda dolların əsas rəqibi avrodur. Bundan əvvəl amerikalı iqtisadçı Nuriel Roubini 10 il ərzində dolların ehtiyat valyuta kimi sıradan çıxa biləcəyini bildirib. Oxşar fikri amerikalı maliyyəçi, "Bridgewater Associates"in təsisçisi Rey Dalio da bildirib. O hesab edir ki, dolların hökmranlığı və iqtisadiyyatda qloballaşma ilə dünya nizamı erası sona çatır.

Bu iqtisadçılar ötən ildən bəri dollarla ticarət əməliyyatlarının azalmasını əsas kimi götürürlər. Qeyd edilib ki, belə əməliyyatların azalması əsasən Rusiya və Çinin ticarət əlaqələrində qeydə alınmaqdadır. Rusiya gəlirlərini ağır sanksiyalardan yayındırmaq üçün neft-qaz ticarətini dollar və avrodan kənar valyutalarla aparmağa çalışır. Çin isə Səudiyyə Ərəbistanından yuanla neft almağa başlayıb, eyni zamanda Braziliya ilə onun valyutası əsasında ticarət etmək barədə razılığa gəlib. Hindistan və Malayziya da rupi ilə ticarət edir. Cənub-Şərqi Asiyanın bəzi ölkələri də daxili əməliyyatları milli valyutalara keçirməyə hazırlaşır. Hazırda dünyanın mərkəzi banklarının kassalarının təhlili göstərir ki, dolların ümumi ehtiyatlardakı payı getdikcə azalır.

Qeyd edək ki, Azərbaycanın valyuta ehtiyatlarının isə çox böyük hissəsi dollarla saxlanılır. Bu ilin birinci rübünün yekununda Dövlət Neft Fondunun portfelində dolların payı 70 faiz təşkil edib. Lakin quru sərhədlərinin bağlı olması vətəndaşların xaricə çıxışını kəskin azaltdığına görə dollar alışı da azalıb. Bu isə ölkədə dollar bolluğunun yaranmasına gətirib çıxarıb. Bu səbəbdən də Mərkəzi Bankın keçirdiyi hərraclarda banklar tərəfindən dollar alışı azalmaqda davam edir.

**İqtisadçı-ekspert Eldəniz Əmirov isə "Şərq"ə açıqlamasında deyib ki, dollar ehtiyatlarının 70 faizdən 60 faizə enməsi biriki ilin məsələsi deyil. Burada söhbət uzun bir müddət ərzində digər ölkələrin valyutasının "şişməsi"ndən gedir. Avropa Birliyinin yaranması və avronun beynəlxalq valyuta olaraq güclənməsindən sonrakı proseslərin məntiqi nəticəsidir:**

"Bu gün dollardan imtinaya cəhd etmiş ölkələr arasındakı birgə danışıqların heç biri real nəticə vermir. Dünən Hindistan və Rusiya arasındakı birgə valyuta ilə bağlı danışıqlar da uğursuz sonlanıb. Halbuki hələ 3 il əvvəldən bu ölkələr birgə ticarətdə dollardan imtina etməklə bağlı danışığa başlayıblar. Göründüyü kimi, bu, mümkün olmadı. Türkiyə ilə Rusiya da dollardan imtinayla bağlı uzun müddət əvvəl məsələ qaldırmışdı. Bu da alınmadı. Heç Rusiya ilə Çin arasındakı danışıqlar da real bir nəticə vermir. Dünya iqtisadiyyatının 67-68 faizi güclü iqtisadiyyata sahib 10 ölkədə toplanıb və Çin istisna olmaqla bu ölkələrin hər biri Amerika ilə müttəfiqdir. Hətta yaxın illərdə Çin iqtisadiyatı ABŞ iqtisadiyyatını qabaqlasa belə, yenə də dollar qarşıdakı 30 ilin lider valyutası olaraq qalacaq. Onu deyim ki, gələcəkdə Avropa İttifaqının dağılma təhlükəsi daha realdır və bu zaman avronun zəifləməsi qaçılmaz olacaq. Onsuz da Böyük Britaniyanın Aİ-dən çıxmasından sonra avro əvvəlki gücünü xeyli itirib. Hazırda isə Almaniya və Fransanın Aİ-dən çıxması gündəmdədir. Bu ehtimallar özünü doğrultsa, avronun taleyi artıq sual altında qalacaq və avroda olan vəsaitlərin böyük hissəsi məhz dollara yönələcək".

Ekspertin sözlərinə görə, Azərbaycan dövlətinin fondu da öz aktivlərində bilavasitə dolların xüsusi çəkisini artırmaq strategiyası tutub və bunu qismən həyata keçirib. Bu baxımdan dolları "ağır", "qara günlər gözləyir kimi populist proqnozlar dünya ictimaiyyətinin diqqətini cəlb etməyə hesablanıb.

**Şəymən**

# İŞİD Azərbaycanda formalaşa bilməz

## Dövlət qurumları sayıq və yetərincə təcrübəlidir



**Türkiyə Milli Kəşfiyyat İdarəsi (MİT) İŞİD terror qruplaşmasının Azərbaycanda da təşkilatlanmağa cəhd göstərən yeni strukturunu ifşa edib. Diyarbəkir Prokurorluğunun başlatdığı istintaq çərçivəsində Şəhər Polis İdarəsinin Terrorla mübarizə şöbəsi və MİT birgə əməliyyat keçirib.**

Aparılan araşdırmalar nəticəsində İŞİD terror qruplaşmasının Türkiyədə "Əhlaq və Sünnət Dərgisi" adı altında yeni bir təşkilat formalaşdırdığı üzə çıxarılıb. Bu təşkilatın Gürcüstan, Azərbaycan, İraq, Mali, Sudan, Əlcəzair və Liviyada da fəaliyyət göstərdiyi müəyyənləşib.

Məlumata görə, qruplaşma "Cihad Qrupu" formalaşdırıb, təlimlərini Gürcüstanda keçib. Qeyd olunub ki, onlar hərbi toqquşmalar olan bölgələrə göndərilirlər.

Xatırladaq ki, Türkiyə təhlükəsizlik qüvvələri mayın 5-də Ankara və Diyarbəkir şəhərlərində əməliyyat keçirib. Nəticədə İŞİD terror qruplaşmasının ümumilikdə 96 üzvü saxlanılıb.

**İŞİD və bənzər terror qruplaşmalarının Azərbaycanda əl-ayaq açmasının imkansız olduğunu deyən jurnalist, siyasi şərhçi Azər Həsrət "Şərq"ə vurğulayıb ki, Azərbaycanın bu yöndə fəaliyyət göstərən dövlət qurumları sayıq və yetərincə təcrübəlidir:** "Bu mənada İŞİD-nin bizdə kök salması üçün əlverişli şərait yoxdur. Üstəlik, MİT-in müəyyən etdiyi hadisə ondan xəbər verir ki, İŞİD Azərbaycanda formalaşa bilməz. Düzdür, Milli İstihbarat Təşkilatı da, bizim Dövlət Təhlükəsizlik Xidməti də əməliyyatlarının detallarını ictimaiyyətə açıqlamayan qurumlardır. Ancaq əminəm ki, MİT bu əməliyyatı keçirərkən Azərbaycan tərəfi ilə də əməkdaşlıq edib.

Digər tərəfdən, bu məsələlərdə Bakı da həmişə olduğu kimi qardaş Türkiyə ilə birlikdə hərəkət edir. Yəqin onların ortaq fəaliyyətləri olub ki, bu cür geniş bir şəbəkəni müəyyənləşdiriblər. Ümumiyyətlə isə "İŞİD Azərbaycanda nə axtarır" sualı çox maraqlıdır. Məncə, İŞİD düşüncəli adamlar bu sualı özlərinə verməli və daşı ətəklərindən tökməlidirlər".

**Analitikin sözlərinə görə, Azərbaycan terrorçu qruplaşmaların at oynadacağı oylaq deyil:** "Ölkəmizin ictimai rəyi və xalqımız özünü hansısa orta əsr təfəkkürlü insanlara təslim edəcək bir cəmiyyət deyil. Azərbaycan xalqı dünyada az-az rast gəlinən ən savadlı millətlər sırasındadır. Ona görə də ölkəmizdə İŞİD və İranın üzərimizə göndərməyə çalışdığı terrorçu dəstələr heç nəyə nail ola bilmir.

İllərdir, bizə qarşı bu cəhdlər var. Ancaq hər dəfə ifşa edilərək qarşısı alınır. Bu baxımdan İŞİD-i dəstəkləyən adamlar iki dəfə düşünməlidir ki, biz burada xalqı öz tərəfimizə çəkib dəstək qazana bilərikmi? Bu sualların cavabı isə birmənalıdır. Azərbaycan xalqı heç zaman terrorçuların ideologiyası ilə razılaşmayıb.

Ona görə də terrorçu qruplaşmaların ölkədə kök salmaq cəhdləri bizdə alınmayacaq. MİT-i isə təbrik etmək lazımdır. Türkiyəli qardaşlarımız daha bir uğurlu əməliyyatla, öz gücünü bir daha göstərdi".

**Nihat Müzəffər**

**Ermənistan Parlamentinin sədri Alen Simonyan Ankarada türkiyəli həmkarı Mustafa Şentopla görüşüb. Görüş Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində baş tutub. Tərəflər bir sıra əsas məsələləri, o cümlədən Türkiyənin hava məkanının Ermənistan aviaşirkətləri üçün bağlanmasını müzakirə ediblər.**

Simonyan görüşdə hava nəqliyyatı məsələsinin müsbət həll olunacağına ümid etdiyini bildirib.




# İrəvanın dəyişkən siyasətinə etibar yoxdur

## Simonyanın Türkiyədəki "yumşaq" çıxışları münasibətlərdəki gərginliyi aradan qaldırmayacaq

Şentop cavabında qeyd edib ki, İrəvanda "Nemesis" memorialının açılışı Türkiyə tərəfi üçün ağrılı və həssas məsələdir.

Aprelin 29-da Ankara "Flyone Armenia" şirkətinə Türkiyə hava məkanı vasitəsilə Avropaya uçuşlar həyata keçirmək üçün əvvəllər verilmiş icazəni ləğv edib. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bunu İrəvanda "Nemezis" əməliyyatının qəhrəmanlarına abidənin açılışı ilə izah edib. Ankara abidənin açılışını "təxribat" adlandırıb. Simonyan Azərbaycanla sülhdən də danışıb. O deyib ki, "Türkiyəsiz bu bölgədə sülhün bərqərar olması mümkün deyil və İrəvanın Türkiyə və Azərbaycana ərazi iddiaları yoxdur". Spiker Türkiyənin regionda sülhün bərqərar olması məsələsində substantiv addımlara əl atacağına ümid etdiyini bildirib: "Biz sülh müqaviləsi imzalamağa hazırıq və maraqlıyıq. Ticarət baxımından regionun açılmasında heç bir problem görmürük. Təbii ki, Ermənistanın qanunvericiliyi və suverenliyi nəzərə alınmaqla Azərbaycandan Naxçıvana və Türkiyəyə insanlar və mallar sərbəst şəkildə gedə bilər".

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev isə "Şərq"ə açıqlamasında deyib ki, ermənilər hər zamankı kimi yenə ikiüzlülük edirlər. Professorun sözlərinə görə, Ermənistanın siyasəti qarşı tərəfin gücünə, mövqeyinə görə formalaşır:** "Ermənilər qarşılarından olanın güclü olduğunu gördükdə özlərini "imam şəhidləri" hesab edirlər, yəni "yola gələn", "hər şeyə razı olan" tərəf kimi göstərirlər. Ancaq İrəvanın dəyişkən siyasətinə etibar yoxdur. Simonyanın Türkiyədəki "yumşaq" çıxışları münasibətlərdəki gərginliyi aradan qaldırmayacaq. İndiki məqamda Türkiyəyə yaltaqlanmağın arxasında məkrli siyasət dayanır. Ermənistan Türkiyə ilə iqtisadi əlaqələrin qurulması prosesini Azərbaycanla münasibətlərdən ayırmağa çalışır. Ancaq qardaş Türkiyə son 30 ildə Azərbaycanla bağlı siyasətində zərrə qədər olsa mənfiyə doğru dəyişiklik etməyib. Hazırkı Türkiyə rəhbərliyinin Cənubi Qafqaz siyasəti, xüsusən Azərbaycana olan sevgisi və dəstəyi əvəzolunmazdır. Türkiyə qətiyyən imkan verməz ki, Azərbaycanın maraqları tapdansın. Ankara hökuməti İrəvanın niyyətini, hansı addımı niyə atdıqlarını çox gözəl bilir. Ermənistanın Türkiyəni öz haqlı yolundan döndərməsi, aldatması qeyri-mümkündür. Ermənistan normal əməkdaşlıqda, qonşularla münasibətlərin qurulmasında maraqlıdırsa, "Nemezis" terror təşkilatının təbliğinə imkan verməməliydi. Saxta "soyqırımı" iddialarından əl çəkməliydi. Ancaq bunları müşahidə etmirik, əksinə, riyakar və xəyanətkar siyasətin davamını görürük".

**İsmayıl Qocayev**

# Heydər Əliyev ümid yerimiz, inam yerimiz idi...

## *14 iyul 1969-cu il: Heydər Əliyev hakimiyyətə gəldi*



**Həmid Vəliyev, BDU-nun beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professoru, Gürcüstan SSR-in Əməkdar jurnalisti**

**O zamanlar Gürcüstan KP MK-nın, respublika Ali Soveti Rəyasət Heyətinin və Nazirlər Sovetinin orqanı "Sovet Gürcüstanı" qəzetində əsas şöbənin-partiya həyatı şöbəsinin müdiri vəzifəsində işləyirdim. Qəzetimiz həftədə üç dəfə kiçik formatda - A3 formatında çıxırdı.**

1969-cu il iyulun 14-ü bazar ertəsi günü növbəti nömrəmizi çapa verməyə hazırlaşırdıq ki, Moskvadan-SİTA-dan, "Hamıya, hamıya" qrifi ilə təcili xəbər aldıq: "Vacib məlumat gözlənilir".

Belə hallarda çox gözləmək lazım gəlirdi. Lap azı saat 22.00-a - Mərkəzi televiziyanın "Vremya" proqramı efirə veriləndə qədər dözməli olurduq. Bəzən bütöv səhifələri "dağıtmalı", bəzən bir-iki səhifəni, bəzən isə birinci səhifənin xeyli hissəsini dəyişmək lazım gəlirdi. Bu isə gecikmələrə, jurnalistlərin və mətbəə işçilərinin gecəni az qala iş başında keçirmələrinə səbəb olurdu.

Xəbərdarlığı saat 20:00 radələrində almışdıq. Saat 21.50 dəqiqədə gözlədiyimiz informasiya gəldi və biz onu tərcümə etdik:

"Azərbaycan KP MK-nın plenumu haqqında məlumat

Bakı, 14 iyul (SİTA.) Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu olub.

Plenum təşkilat məsələsinə baxıb.

Plenum başqa işə keçməsi ilə əlaqədar olaraq V.Y.Axundovu Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən və büro üzvlüyündən azad edib.

Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri işləmiş H.Ə.Əliyev Azərbaycan KP MK-nın birinci katibi və büro üzvü seçilib.

Sov.İKP MK katibi İ.V.Kapitonov plenumun işində iştirak edib".

SİTA-nın göstərişinə uyğun olaraq, xəbəri qəzetimizin birinci səhifəsində yerləşdirdik. Həmin informasiyanı gürcü dilində nəşr olunan "Komunisti" və rus dilində çıxan "Zarya Vostoka" qəzetləri də çərşənbə axşamı nömrələrində dərc etmişdilər.

Dərhal bir ay bundan əvvəl Bakı Ali Partiya Məktəbində rəhbər partiya, sovet və kütləvi informasiya vasitələri işçilərinin təkmilləşdirilməsi ilə məşğul olan respublikalararası kurslarda iştirak etdiyim günlər yadıma düşdü. Gürcüstandan 2-si azərbaycanlı - Mərkəzi Komitədə inspektor vəzifəsində çalışan Həsən Hacıyev və mən olmaqla 42 nəfər idik. Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstan respublikalarının hər birindən gəlmiş nümayəndələr də yəqin ki, elə o qədərdi.

Kurslarda tanınmış alimlər, dövlət xadimləri, KİV rəhbərləri mühazirələr oxuyurdular. Mühazirə oxumağa Gürcüstandan da gəlirdilər. "Tbilisi" axşam qəzetinin redaktoru Nikolay Caşinin və "Veçerni Tbilisi" qəzetinin redaktoru Pavel Aslanidinin mühazirələri çox böyük maraqla qarşılandı. Onlar özlərini həm yüksəksəviyyəli jurnalist, həm də mahir redaktorlar kimi təqdim edə bildilər. Bakıda nəşr olunan "Vışka"nın redaktoru Fazil Muradəliyevin və başqalarının mühazirələri də həm məzmun, həm də formaca diqqəti cəlb edirdi

Dərs cədvəlində Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri H.Ə.Əliyevin mühazirə oxuyacağı göstərilmişdi. Sərhəd və onun qorunması, ümumən dövlət təhlükəsizliyi məsələləri bütün dinləyiciləri maraqlandırdığına görə həmin günü səbirsizliklə gözləyirdik. Nəhayət, o gün gəlib çatdı.

Kursların rəhbəri mülki geyimli, uca boylu bir kişi ilə dərs keçdiyimiz iri auditoriyaya daxil olub dedi:

Yoldaşlar, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, general Heydər Əlirza oğlu Əliyev sizə sərhədlərimizin qorunması və dövlət təhlükəsizliyi məsələlərindən danışacaq...

Komitə sədri indiyədək bizə mühazirə oxuyanların bir çoxundan fərqli olaraq şparqalkasız, qovluqsuz, necə deyərlər, "əliboş" gəlmişdi. İlk baxışdan sadə və səmimi görünən H.Əliyev söhbətinin elə əvvəlindəncə səsinin ahəngi, gətirdiyi faktların şərhində kifayət qədər səriştəlilik, hərəkətlərində yüksək mədəniyyət nümayiş etdirməsi ilə auditoriyanı ələ aldı. Dinləyicilər - azərbaycanlılar, gürcülər, dağıstanlılar, ermənilər diqqət kəsilmişdilər. O danışırdı: "Biz bu yaxınlaradək hansısa obyektin şəklini çəkən və ya çəkməyə cəhd göstərən adamın casus olduğu fikrindəydik. İndi həmin adam və onu göndərənlər bilirlər ki, bu üsul bir çoxlarının asan ifşa olunması ilə nəticələnir. Casusu artıq qapalı obyektin şəklini çəkən görmək, necə deyərlər, dəbdən düşmüşdür. Hazırda casus hər hansı şəhərin, elə Bakının müəyyən yerindən bir ovuc torpaq götürür, cib dəsmalına bükür və heç kəsin diqqətini cəlb etmədən, heç kəsdə şübhə yaratmadan çıxıb gedir. İşinin səmərəsini isə sonradan görür. Bir ovuc torpaq təmsil etdiyi ölkənin xüsusi laboratoriyasında analiz olunur, torpağın götürüldüyü ərazinin neçə kilometrliyində hansı qapalı obyektin, hansı hərbi hissənin yerləşdiyi tam dəqiqliyi ilə müəyyənləşdirilir..."

Dünyanın az qala bütün ölkələrinin sərhədlərini aşaraq fəaliyyət göstərmiş, həmişə də sudan quru çıxmış bir çinli casusun Azərbaycanda ifşa olunub həbs edilməsi faktından və buna bənzər digər faktlardan o qədər maraqla danışırdı ki...

Söhbət ürəyə yatanda vaxt necə də sürətlə keçirmiş! Dərsin birinci hissəsi, yəni 45 dəqiqə elə bil 2-3 dəqiqə imiş. 10 dəqiqəlik tənəffüs zamanı dinləyicilər H.Əliyevi dövrəyə aldılar. Ona sərhədlərimizin pozulması ilə bağlı suallar verildi. Əsaslandırılmış, tutarlı cavablar hamımızı heyran edirdi.

Dərsin ikinci hissəsi daha canlı keçdi. Mühazirəçi mövzuyla bağlı saysız- hesabsız misallar gətirdi, hər şeyi yerli-yerində əsaslandırdı.

H.Əliyev axırda onu maraqla dinlədiyimizə, bu və ya digər məsələnin müzakirəsində yüksək fəallıq və obyektivlik göstərdiyimizə görə bizlərə təşəkkürünü bildirdi. Azərbaycanlılar belə bir çekistimizin olmasından qürur duyduqlarını, bədnam qonşularımız isə sözün həqiqi mənasında paxıllandıqlarını və həsəd apardıqlarını açıq-aşkar hiss etdirirdilər...

Elə ilk gündən etibarən Azərbaycanda böyük canlanma hiss edilməyə başladı. Radio, televiziya və qəzetlərdə ölkənin həyatında rüşvətxorluğa, əliəyriliyə, sosialist əmlakının dağıdılmasına, möhtəkirliyə və bürokratizm hallarına qarşı ciddi mübarizə aparılması barəsində materiallar mühüm yer tuturdu. Qanunçuluğun möhkəmləndirilməsi üçün tədbirlər görülürdü. Sosializim cəmiyyətinin antipodları, necə deyərlər, mühasirəyə alınmışdılar. Tüfeylilər, ortada yeyib qıraqda gəzənlər özlərinə yer tapa bilmirdilər...

1972-ci il, sentyabrın 29-da Gürcüstan rəhbərliyində də dəyişiklik oldu. Hakimiyyətdə olanda görkəmli marksist-leninçi, dünya kommunist və fəhlə hərəkatının dəmir iradəli lideri, vəzifəsindən uzaqlaşdırıldıqdan sonra isə "enerjili axmaq" adlandırılan Nikita Xruşşovun bacanağı Vasili Pavloviç Mjavanadze Gürcüstan KP MK-nın birinci katibi vəzifəsindən getdi. Yerinə bir müddət respublika komsomolunun rəhbəri, daxili işlər naziri, bu ərəfədə isə Tbilisi Şəhər Partiya Komitəsinin birinci katibi işləmiş Eduard Amvrosyeviç Şevardnadze gətirildi. Azərbaycanda olduğu kimi, bu respublikada da yeni ab-hava yarandı, qanunçuluğun pozulmasına qarşı mübarizə gücləndirildi, rüşvətxorluğu özlərinə peşə edənlərin rahatlığı pozuldu, qızıl qalstukda gəzənlər layiq olduqları yeri tapdılar - həbsxanalara göndərildilər, Qardabani Rayon Partiya Komitəsinin birinci katibi Tbilisi və Rustavi əhalisini təzə tərəvəz və meyvə ilə yaxşı təmin etmədiyinə və yol verdiyi digər ciddi nöqsanlara görə vaxtilə aldığı Sosialist Əməyi Qəhrəmanı kimi yüksək addan məhrum edildi. Bazarlara gizli yoxlamalara dair plan barəsində informasiyanı bazar direktorlarına çatdırdığına görə MK-nın təşkilat - partiya işi şöbəsinin müdiri Roin Metreveli vəzifəsi ilə vidalaşdı. Bu cür hallar çox olurdu.

Bütün sahələrdə canlanma hiss olunurdu. Hər yerdə ciddi nizam-intizam yaranırdı. Bazar ertələri saat 11:00-da birinci katibin yanında keçirilən müşavirədə mətbuat, radio və televiziya işçilərinin həftə ərzində vəzifələri barəsində KİV rəhbərlərinə göstərişlər verilirdi. Qəzetlərdə dərc edilən, radio və televiziyada yayımlanan tənqidi materialların sayı çoxalmış, bunlarla bağlı görülən tədbirlərin səmərəsi yüksəlmişdi.

"Sovet Gürcüstanı" "dişli" mətbuat orqanı sırasına keçmişdi. Bununla belə, onun kiçik formatda çıxması respublikada reallaşdırılan islahatlar, ictimai-siyasi həyatın heç vaxt olmadığı qədər canlanması ideoloji iş sahəsində qarşıda duran vəzifələri yeni tələblər səviyyəsində işıqlandırmağa imkan vermirdi. 1921-ci ildə Gürcüstanda Sovet hakimiyyəti qurulmasının ilk günlərindən çıxan qəzetin nəşri 1944-cü ilin noyabrında-Ahıska türklərinin, yəni Aspindza, Adıgün və Axalsixe rayonlarının əsas əhalisinin Qazaxıstana və Orta Asiyaya köçürülməsindən sonra - 1945-ci ilin yanvarında müvəqqəti dayandırıldı və bu müvəqqətilik 1960-ci il avqustun 2-dək davam etdi.

Oxucu konfranslarında, azərbaycanlıların yığcam yaşadıqları rayonlarda keçirilən müxtəlif tədbirlərdə "Sovet Gürcüstanı" qəzetinin formatının böyüdülməsinin zəruriliyindən danışılırdı, MK-ya, Ali Sovetin Rəyasət Heyətinə, Nazirlər Sovetinə, habelə Moskvaya- Kremlə bu barədə çoxlu müraciətlər olurdu.

Redaksiyanın kollektivi də qəzetin həcminin böyüdülməsi xahişi ilə vaxtaşırı E.A.Şevardnadzeyə müraciət edirdi. Təəssüf ki, birinci katibin cavabı həmişə belə olurdu: "Ölkənin sellüloz-kağız sənayesi planı yerinə yetirmədiyinə görə kağız çatışmır. Buna görə də formatın böyüdülməsi mümkün deyildir".

Bu, bir yandan doğru olsa da, digər tərəfdən bəhanə idi. Çünki lazım gələndə kağız tapılırdı. Bir az əvvəl həftədə bir dəfə 4 səhifədə çıxan "Literaturuli Sakartvelo" ("Ədəbi Gürcüstan") qəzetinin həcmini artıraraq, 16 səhifə etmişdilər. Erməni qəzetinin də böyük formatda çıxması göz qabağında idi. Əhalinin sayına gəlincə, biz onlardan çox idik. Qəzetin nəşri 1960-cı ilin avqustunda bərpa olunanda tirajımız 12.000 nüsxə idi. 1977-ci ildə isə 75.000 abunəçimiz vardı. Erməni qəzetinin tirajı isə heç 37.000 nüsxə də deyildi.

24 noyabr 1982-cü il: Heydər Əliyev Kremlə getdi, qəzetimiz böyüdü

Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi Azərbaycan xalqını, dünya azərbaycanlılarını, bütün türk dünyasını sevindirdi. Amma bizə elə gəlirdi ki, hamıdan çox Gürcüstan azərbaycanlıları sevinirlər. Çünki onların problemlərinin həlli üçün əlverişli şərait yaranmışdı.

Milli şüurumuz oyanırdı. Ən əvvəl Marneuli rayonunun gəncləri ayağa qalxdılar. İstəkləri və dedikləri də bu oldu: "Rayonun rəhbərləri yerli kadrlardan olmalıdır. Gürcü olsa belə, adət-ənənələrimizi bilməlidir." Qərbi Gürcüstandan olan Marneuli şəhər partiya komitəsinin birinci katibi Baakaşvilinin başına gələn əhvalat dillər əzbərinə çevrilmişdi. Katib Novruz bayramı günündə kabinetində, oturub sənədlərə baxdığı zaman açıq pəncərədən iri nəyinsə içəri atıldığını görür, bunu bomba sanıb dərhal millis rəisinə zəng edir. Milislər partiya komitəsinin binasına axışırlar. Məlum olur ki, atılan torba imiş və onu bayram payı almaq məqsədilə uşaqlar atıblar. Katib isə azərbaycanlıların Novruz ənənələrindən xəbərsiz olduğuna görə pis vəziyyətə düşür.

Vəziyyətin ciddi olduğunu hiss edən Gürcüstan hakimiyyəti güzəştə getmək məcburiyyətində qalır. Təcili surətdə Marneuli rayonunun mərkəzi qonşu kəndləri buraya daxil etməklə respublika tabeliyində şəhərə çevrildi. Marneuli Şəhər Partiya Komitəsi və Marneuli Rayon Partiya Komitəsi yaradıldı. Şəhər partiya komitəsinə birinci katib vəzifəsinə gürcü, rayon partiya komitəsinin birinci katibi vəzifəsinə isə azərbaycanlı, kənd təsərrüfatı mütəxəssisi Kamal Məmmədov seçildi. Rayon Komsomol Komitəsinin birinci katibi vəzifəsinə Sadaxlı kəndindən Bəkir Dəmirçəlov gətirildi. Müxtəlif səviyyələrdə müəyyən qədər azərbaycanlı kadrlar yerləşdirildi. 5 nəfər azərbaycanlı gənc hüquqşunas ixtisasına yiyələnmək və ali təhsili başa vurduqdan sonra Gürcüstana qayıdıb inzibati orqanlarda işləmək üçün Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə göndərildi...

1983-cü il dekabrın 3-də şənbə günü Marneuli şəhər partiya təşkilatının 2-ci konfransı keçirilirdi. MK-nın göstərişi ilə "Sovet Gürcüstanı" qəzetinin həmin günkü nömrəsi bütünlüklə Marneuli şəhərinin həyatına həsr edilmiş və rəngli çıxmışdı. Tirajın 500 nüsxəsi konfrans nümayəndələrinə və qonaqlara paylanmışdı.

Konfransa təhkim olunmuş Mərkəzi Komitə katibi Soliko Xabeişvili tədbirin açılışında ilk söz alaraq dedi:

Hörmətli nümayəndələr və qonaqlar! Marneuli şəhərinin, Marneuli rayonunun əhalisini və onların şəxsində respublikanın bütün azərbaycanlılarını təbrik edirəm. Mən buraya yola düşərkən Eduard Amvrosyeviç Şevardnadze Sov.İKP MK-ya məktub imzaladı. "Sovet Gürcüstanı" qəzeti yeni il yanvarın 1-dən böyük formatda çıxacaq.

Salonda gurultulu alqışlar qopdu. Bəli, azərbaycanlıların, o cümlədən salondakıların çoxdankı arzusu reallaşırdı.

Bazar ertəsi məni MK-ya çağırıb kadrları seçməyi və ştat cədvəlini tərtib etməyi tapşırdılar. Onu da dedilər ki, işə Tbilisidə yaşayıb mənzili olanları dəvət edək, çünki rayonlardan gəlməli olanlar mənzil tələb edə bilərlər. Yeri gəlmişkən deyim ki, redaktorumuz Süleyman Süleymanov Moskvada aylıq ixtisasartırma kursunda olduğuna görə müavin kimi onun vəzifəsini mən icra edirdim.

Qərar gəldi. Qəzetin böyük formatda ilk nömrəsi bir sıra səbəblər üzündən yanvarın 1-də çıxmadı. Lakin çox gözləmək də lazım olmadı. 1984-cü il, mayın 1-də oxucularımız böyük formatda rəngli qəzeti gördülər...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**



# Milli dövlətçiliyimizin möhkəmlənməsi

## "Ümummilli Lider Heydər Əliyev ölkəmizdə insan hüquqlarının qorunması sahəsində mütərəqqi islahatların müəllifidir"

**Anadan olmasının 100 illiyini təntənə ilə qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyev dövlət idarəçiliyində bütün sferalara xüsusi diqqət ayırdığı kimi, insan hüquqlarının qorunması sahəsində də inkişafa, beynəlxalq standartların ölkəmizdə də tətbiqinə nail olunması üçün lazımi addımların atılmasını təmin edib. Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmiz insan hüquqları üzrə bir sıra təşkilatlara üzv qəbul olunub, insan hüquqları sahəsində beynəlxalq konvensiyalara qoşulub, beynəlxalq sənədlər ratifikasiya edilib.**

Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyev və müstəqil Azərbaycanda insan hüquqlarının inkişafı" mövzusunda keçirilmiş elmi-praktik konfransda məhz bu məsələlərdən danışılıb. Tədbirdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili - ombudsman Səbinə Əliyeva, Milli Məclis sədrinin müavini Adil Əliyev, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərov, Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu, Milli Məclisin deputatları Kamal Cəfərov, Bəhruz Məhərrəmov, Bakı Dövlət Universitetinin professoru Əmir Əliyev, Ombudsman Aparatının əməkdaşları, dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər. Konfransı giriş sözü ilə açan Ombudsman Səbinə Əliyeva əziz xatirəsi xalqımız tərəfindən daim dərin hörmətlə yad edilən Ulu Öndərin Azərbaycanda insan hüquqlarının inkişafı və təminatı, müstəqil məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının əsasının qoyulması ilə bağlı mühüm əhəmiyyət kəsb edən islahatların həyata keçirilməsində müstəsna rolu olduğunu, Ümummilli Lider Heydər Əliyev tərəfindən ictimai-siyasi, sosial-iqtisadi və mədəni-humanitar sahələrin inkişafı, milli dövlətçiliyimizin möhkəmlənməsi, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində aparılmış mütərəqqi islahatlar nəticəsində ölkəmizin çoxsaylı uğurlara imza atdığını vurğulayıb. Müvəkkil qeyd edib ki, Azərbaycanın müxtəlif inkişaf mərhələlərində bilavasitə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü əsasında insan hüquq və azadlıqlarının daha səmərəli təmininə nail olmaq məqsədilə bir sıra strateji əhəmiyyətli sənədlər hazırlanıb və təsdiq edilərək icra olunub. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, diqqəti və qayğısı nəticəsində həmin sənədlərin icrasının təmini çərçivəsində ölkəmizdə insan hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilib. Müvəkkil əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş insan hüquqları sahəsində hüquqi islahatların hazırda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəal dəstəyi ilə uğurla davam etdirildiyini bildirib. S.Əliyeva Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə müstəqil bir qurum olaraq yaradılan və artıq 20 ildən çoxdur ki, fəaliyyət göstərən Ombudsman təsisatının bu gün qanunvericilik, icra və məhkəmə hakimiyyətləri, digər aidiyyəti dövlət qurumları, habelə yerli özünüidarə orqanları, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əməkdaşlığını uğurla davam etdirdiyini də konfrans iştirakçılarının diqqətinə çatdırıb. Milli Məclis sədrinin müavini Adil Əliyev konfransda çıxışı zamanı bu gün Azərbaycanın ictimai-siyasi həyatında baş verən inkişafın ən böyük səbəbkarının Ulu Öndər Heydər Əliyevin olduğunu bildirib, onun keçdiyi həyat yolunun hər kəs tərəfindən öyrənilməsinin vacibliyini vurğulayıb. Müasir məhkəmə siyasətinin əsasının məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi illərində qoyulduğunu bildirən A.Əliyev Azərbaycanda kompleks hüquqi islahatların aparıldığını, Ümummilli Liderin sədrlik etdiyi komissiya tərəfindən hazırlanan Azərbaycan Respublikasının Konstitusiyasının da bu dövrlərdə qəbul edildiyini qeyd edib. Tədbirdə Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnsan hüquqları üzrə milli qanunvericilik bazasının inkişafında Heydər Əliyevin rolu" mövzusunda çıxış edərək Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə hər bir sahədə inkişafın əldə edildiyini, insan hüquq və azadlıqlarının təmini sahəsində köklü islahatların həyata keçirildiyini bildirib. Konfransda "Heydər Əliyev və gender siyasəti" mövzusunda çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində gender siyasətinə xüsusi əhəmiyyət verdiyini qeyd edib, Ulu Öndər Heydər Əliyevin hər bir imkandan istifadə edərək hər zaman qadınları önə çəkdiyini söyləyib. Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır" mövzusunda çıxışı zamanı Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə xalqımıza şərəflə xidmət etdiyini, xalqın çətin vaxtlarında hər zaman onun yanında olduğunu bildirib. O, Azərbaycan xalqının Heydər Əliyevə həmişə inandığını, bütün təzyiqlərə baxmayaraq xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldiyini, Ümummilli Liderin Azərbaycanın xilaskarı olduğunu qeyd edib. Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərov "Qərbi Azərbaycanlıların əzəli torpaqlarına qayıdışı Ümummilli Liderin daim diqqət mərkəzində olmuşdur" mövzusunda çıxış edib, hələ sovet dövründə Ulu Öndər Heydər Əliyevin milli düşüncənin formalaşmasında böyük rolu olduğunu bildirib. O, Ümummilli Liderin dünya azərbaycanlılarının, o cümlədən Qərbi azərbaycanlıların problemlərini hər zaman diqqətdə saxladığını qeyd edib.

Milli Məclisin deputatı Kamal Cəfərov "Heydər Əliyev və gənclər siyasəti" mövzusunda çıxışı zamanı Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının ən böyük hüquq müdafiəçisi olduğunu bildirib, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasındakı müstəsna rolundan bəhs edib. O, ölkəmizdə gənclərə xüsusi önəm verildiyini, bu istiqamətdə bir çox islahatların həm Ümummilli Lider Heydər Əliyev, həm də onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirildiyini bildirib. "Heydər Əliyev və məhkəmə-hüquq islahatları" mövzusunda çıxış edən Milli Məclisin deputatı Bəhruz Məhərrəmov Ulu Öndərin hakimiyyəti illərində geniş məhkəmə hüquq islahatları aparıldığını, bu sahədə əhəmiyyətli qanunların ilk dəfə həmin dövrdə qəbul olunduğunu diqqətə çatdırıb. Bakı Dövlət Universitetinin professoru Əmir Əliyev "Azərbaycanda hüquq elminin və təhsilinin inkişafında Heydər Əliyevin rolu" mövzusunda çıxış edərək, Ulu Öndərin birinci hakimiyyəti dövründən başlayaraq, hüquq sahəsi üzrə milli kadrların yetişdirilməsinə yönəlmiş işlər gördüyünü, apardığı uğurlu siyasətlə ölkəmizdə hüquq elminə çox böyük töhfələr verdiyini qeyd edib. Elmi-praktik konfrans işini müzakirələrlə davam etdirib.

**Keçirilən konfrans və Ulu Öndərin Azərbaycanda insan hüquqlarının qorunması sahəsində apardığı məqsədyönlü fəaliyyəti barədə "Şərq"ə danışan Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyətinin sədri Novella Cəfəroğlu qeyd etdi ki, insan hüquqlarının müdafiəsi sahəsində bu gün əldə edilmiş nailiyyətlərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Qeyd edək ki, N.Cəfəroğlu konfransda "Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasında Heydər Əliyevin rolu" mövzusunda çıxış edib:**

- Ümummilli Lider, fenomenal şəxsiyyət Heydər Əliyev hakimiyyətə yenidən gəlişi ilə Azərbaycanı parçalanmadan xilas etdi. Heydər Əliyev dövlət quruculuğunda, idarəetmədə böyük təcrübəyə, elmi-siyasi biliklərə malik idi. Əmin idi ki, ölkənin hərtərəfli inkişafında insan hüquqları, qanunçuluğun möhkəmlənməsi böyük əhəmiyyət daşıyır. Ona görə də bu sahələrdə demokratik qanunların qəbulunu vacib sayırdı. Heydər Əliyevin vaxtında bir çox qanunlara dəyişiklik edildi, mütərəqqi addımlar atıldı. Avropa Şurası ilə əlaqələrimiz genişləndi. Azərbaycan bir sıra beynəlxaq müqavilələrə qoşuldu. 11 sentyabr 1996-cı ildə AŞ Nazirlər Komitəsinin 573-cü iclasında Azərbaycanın Avropa Şurasına daxil olması, Azərbaycanda demokratiyaya keçid prosesinin sürətləndirilməsi məqsədilə Azərbaycan hakimiyyət dairələri ilə danışıqların intensivləşdirilməsi, əməkdaşlıq proqramları formasında yardımın edilməsini nəzərdə tutan qətnamə qəbul edilib. Ölkəmizin bu təşkilata üzv qəbul edilməsi Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin nəticəsi idi. Onun təşəbbüsü ilə Azərbaycanda 1993-cü ildən ölüm cəzasına moratorium qoyuldu, 1998-ci ildə isə ölüm hökmü ləğv edildi. Ölüm cəzasının ləğvi və cəza siyasətinin humanistləşdirilməsi Azərbaycanın Avropa ailəsinə qoşulmasını təmin edən mühüm amillərdən biri oldu. Nəhayət, 2001-ci ildə Azərbaycan Avropa Şurasının bərabərhüquqlu üzvü seçildi.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Azərbaycanda koronavirus sönməyə doğru gedir

## Yoluxan insanların böyük əksəriyyəti xəstəliyi yüngül keçirir, xəstəxanalara yatış sayı çox az saydadır

**Artıq ardıcıl olaraq onuncu həftədir ki, dünyada COVID-19-dan ölüm hallarının sayı 2020-ci ilin martından bəri müşahidə olunmayan səviyyədə qalır.**

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus Cenevrədəki mətbuat konfransında bildirib.

Bu azalma tendensiyası ölkələrə normal həyata dönməyə, bütün dünyada səhiyyə sistemlərinə isə mümkün olan yoluxma hallarının yayılmasının və COVID-19-dan sonra fəsadların öhdəsindən daha yaxşı gəlməyə imkan verib. "Eyni zamanda virusun təkamülü məsələsində bəzi ciddi şübhələr qalır, bu da gələcək yoluxma dinamikası və ya mövsümlüyünün proqnozlaşdırılmasını çətinləşdirir", - deyə ÜST başçısı qeyd edib.

Xatırladaq ki, ÜST COVID-19-a strateji hazırlıq və reaksiya verilməsinə dair dördüncü planı dərc edib. Həmin sənəddə birgə epidemioloji nəzarət, əhalinin qorunması, əks tədbirlərin əlçatanlığı və fövqəladə hallarda hərəkətlərin koordinasiyası da daxil olmaqla, qlobal reaksiya verilməsi üçün ən mühüm fəaliyyətlər ətraflı təsvir olunub.

Müsbət xəbərlərə baxmayaraq, epidemioloji nəzarət və genetik ardıcıllıq səviyyəsinin azalması, həyati nöqteyi-nəzərdən zəruri olan müalicəyə qeyri-bərabər çıxış və geniş yayılmış pandemiya yorğunluğu kimi problemlər hələ də mövcuddur. Bu amillər səbəbindən bütün dünyada milyonlarla insan risk altında qalmaqda davam edir.

"Virus yoxa çıxmayacaq və bütün ölkələr digər yoluxucu xəstəliklərlə yanaşı onun qarşısını almağı öyrənməlidir", - deyə doktor Tedros əlavə edib.

İnfeksionist Sevinc Əzimova da bildirib ki, Azərbaycanda COVID-19 infeksiyası sönməyə doğru gedir. Uzun müddətdir ki, yeni yoluxma hallarının sayı minimal - ikirəqəmli həddədir: "Yoluxan insanların böyük əksəriyyəti xəstəliyi yüngül keçirir, xəstəxanalara yatış sayı çox az saydadır. Hətta bir neçə vaxt davam edən bayram günlərində insanlar arasında təmasların sayının artmasına baxmayaraq, yoluxma hallarında artım müşahidə edilmədi. Bu, onu deməyə əsas verir ki, vəziyyət kifayət qədər dayanıqlıdır. Səbəb isə əhalinin əksər hissəsində xəstəliyə qarşı immunitetin formalaşmasıdır ki, bu da bir tərəfdən xəstəliyi keçirmə, digər tərəfdən isə və əsasən kütləvi vaksinasiya hesabına əldə edilib".

**Şəymən**

# Beynəlxalq tədbirlər, sammitlər küçə və savaş meydanı deyil

## Ankaraya gələn bütün qonaqlar ən azından təşkilatçı kimi Türkiyəyə hörmət qoymalıdır

**Mayın 4-də Ukrayna Ali Radasının deputatları Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) Ankarada keçirilən sammitində insidentin yaranmasına səbəb oldular.**

Ukrayna rəsmiləri rusiyalı Olqa Timofeyevanın çıxışına mane olmağa çalışıblar. Onlar rus deputatın arxasında bayraq açıblar, Rusiya nümayəndə heyətinin üzvləri isə ukraynalıların hərəkətlərinin qarşısını almağa cəhd göstərib. Nəticədə tərəflər arasında qarşıdurma yaşanıb. Ukraynalı deputat Rusiya nümayəndəsinə ciddi xəsarət yetirib. Bundan sonra Türkiyə Parlamentinin sədri Mustafa Şentop vəziyyətə müdaxilə edərək fasilə elan edib. Həmçinin tədbirin qaydalarını pozan nümayəndə heyətinin zalı tərk etməsi tələb olunub: "Belə şey ola bilməz. İclasın dincliyini kiminsə pozmasına icazə verməyəcəyəm. Hər kəs öz sözü ilə fikrini bildirə bilər, buna heç bir maneə yoxdur, amma bu cür hərəkətlər edilsə, belə görüşlər parlament iclası olmaqdan çıxacaq və küçə hərəkətinə çevriləcək. Gedin, buna küçədə edin. Burada icazə vermirəm". İnsident zamanı ukraynalı deputat Aleksandr Marikovskinin döydüyü Rusiya nümayəndə heyətinin üzvü Valeri Stavitskinin xəstəxanaya yerləşdirildiyi deyilib.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında Ankarada beynəlxalq tədbirdə baş verənlərin arzuolunmaz və təəssüf doğuran hadisə olduğunu deyib. Ekspert vurğulayıb ki, beynəlxalq tədbirlər, sammitlər küçə və savaş meydanı deyil:** "Adətən qlobal sammitlərdə təcrübəli, təmkinli, sanballı siyasətçilər bir araya toplanaraq konkret məsələləri müzakirə edir, fikir mübadiləsi aparırlar. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Ankarada keçirilən sammitinə Türkiyə ev sahibliyi edir. O baxımdan Ankaraya gələn bütün qonaqlar ən azından təşkilatçı kimi Türkiyəyə hörmət qoymalıdır. Əgər Ukrayna deputatları tədbirdə Rusiya nümayəndələrini görmək istəmirdisə, bunu qəbul etmirdisə, əvvəldən sammitə gəlməkdən imtina etməliydilər. Yox əgər Türkiyənin dəvətinə "yox" deməyərək tədbirə qatılıblarsa, o halda təmkinli davranmalıydılar. Ukrayna deputatlarını Ankaraya dəvət edənlər ruslar deyil ki?".



*"Əgər Ukrayna deputatları tədbirdə Rusiya nümayəndələrini görmək istəmirdisə, bunu qəbul etmirdisə, əvvəldən sammitə gəlməkdən imtina etməliydilər"*

İ.Vəlizadə vurğulayıb ki, beynəlxalq formatlar çərçivəsində dəfələrlə Azərbaycan və Ermənistan nümayəndələri eyni tədbirlərə qatılıblar: "Nəinki başqa ölkələrdə, hətta Azərbaycanda təşkil olunmuş beynəlxalq sammitlərə rəsmi Bakı erməniləri də dəvət edib. Çünki beynəlxalq protokol qaydaları var və bütün ölkələr onlara riayət etməlidir. İllər ərzində Azərbaycan torpaqlarının 20 faizini işğalda saxlamış, xalqımıza qarşı qətliamlar, soyqırımlar törətmiş Ermənistanın beynəlxalq tədbirlərdəki çıxışlarına, ittihamlarına dözümlü yanaşmışıq. Əlbəttə, haqqımız var idi ki, ukraynalı həmkarlarımız kimi davranaq. Ancaq özümüzə, digər ölkələrə hörmət əlaməti olaraq buna getməmişik, beynəlxalq qanunlara əməl etmişik. Birmənalı olaraq bütün savaşları, işğalçılıq hərəkətlərini pisləyirik və buna qarşı çıxırıq. Ancaq bir ölkənin nümayəndəsi harada olduğunu nəzərə almalı, qlobal sammitlərdə sivil davranış normalarına riayət etməlidir".

**İsmayıl Qocayev**

# Şagirdlər ən çox ingilis dilinə can atırlar

## Amma bu dilin Azərbaycandilli məktəblərdə tədrisi zəifdir

**Azərbaycan qanunvericiliyi əcnəbi dillərdə təhsil imkanı verdiyindən valideynlərin seçimini nəzərə alıb, məktəbəqədər təlim üçün alternativ, ikidilli təlim modeli hazırlanmalıdır. Eyni zamanda bu təlim modelinin kurikulum və tədris planları da hazırlanmalıdır.**

Bu təklifi edən professor Telman Vəlixanlının fikrincə, erkən və məktəbəhazırlıq mərhələsi üçün nəzərdə tutulan bu model azərbaycanlı uşaqların ölkədə və dünyanın istənilən nöqtəsində orta ümumi təhsilə hazırlığını təmin edəcək:"Hesab edirəm ki, müasir linqvodidaktik tələblər əsasında orta məktəblərdə əsas xarici dilin intensiv tədrisi 5-ci sinifdən deyil, 1-ci sinifdən, həftədə 3 saat olmaqla və mütləq yarımqruplarda təşkil edilməlidir. Yəni yuxarı siniflərin tədris planlarındakı dərs saatlarını aşağı siniflərə endirmək lazımdır".

**Təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki, orta ümumtəhsil məktəblərində xarici dilin tədrisi iki istiqamətdə - əsas və ikinci xarici dil olaraq keçirilir:** "Əsas xarici dil birinci sinifdən, ikinci xarici dil isə beşinci sinifdən tədris olunur. Tədris planına dair qeydlərdə də göstərildiyi kimi, istər əsas, istərsə də xarici dili seçim hüququ valideynlərə verilir. Onlar müəyyən olunmuş dillər - ingilis, alman, fransız, rus, ərəb və fars dilləri arasında seçim etməkdə azaddırlar. Mövcud qanunvericiliyə əsasən, hətta valideynlərin seçimindən asılı olaraq zərurət yaranarsa, eyni sinifdə iki xarici dil qrupu da təşkil oluna bilər.

Ölkəmizdə daha çox tədris olunan xarici dillərə gəlincə, xarici dillərin öyrənilməsi ilə bağlı ümumi bir tələbat var. Bu tələbat istəsək də, istəməsək də, cəmiyyətin özü tərəfindən formalaşır. Hər birimiz bilirik ki, beynəlxalq aləmə əsas çıxış dili ingilis dilidir. Bu baxımdan ölkəmizdə xarici dillərin tədrisində əsas dil kimi ingilis dili çox böyük üstünlük təşkil edir. Təxmini hesablamalara görə, məktəblərimizdə birinci xarici dil kimi 90-95 faiz ingilis dili tədris olunur. Əsas xarici dil ingilis dili olan məktəblərdə isə ikinci xarici dilin daha çox rus dili olduğu müşahidə edilir. Təbii ki, ikinci xarici dil olaraq fransız, alman dilləri tədris olunan məktəblərimizə də rast gəlinir. Lakin bu məktəblərin sayı çox azdır. Ərəb dili tədris olunan məktəblərimizə isə çox nadir hallarda rast gəlinir".

K.Əsədovun sözlərinə görə, 15 il əvvəl orta məktəblərdə ingilis dili beşinci sinifdən başlayaraq tədris olunurdu. Bu sinifdən başlayaraq on birinci sinfə kimi tədris olunurdu. Və dərsliklər hər il deyil, bir neçə il sonra dəyişilirdi. Lakin Azərbaycanın Avropaya inteqrasiyasından sonra Azərbaycanda da ingilis dilinə tələbat artdı. Hazırda istənilən sahədə çalışan şəxslər, tələbələr, şagirdlər bu dili öyrənməyə can atırlar: "Hazırda isə məktəblərimizdə ingilis dili dərsləri birinci sinifdən başlayaraq on birinci sinfə kimi tədris olunur. Əslində bu, ilk baxışdan normaldı. Əvvəla, bizdə şagirdlərin mühiti başqadır, yəni xaricdəki kimi deyil. Məsələn, xaricdə uşaq məktəbə getməmişdən əvvəl, yəni uşağın məktəbəqədər dövrü zamanı da ingilis dili dərsləri keçirilir. Təbii ki, yaşa uyğun şəkildə. Və uşaq artıq məktəbə gedəndə daha rahat şəkildə dərslikləri mənimsəməyə başlayır. Qəbul və buraxılış imtahanlarının nəticələrini təhlil edəndə görürük ki, şagirdlər xarici dildən minimum tələbləri ödəyiblər. Azərbaycan bölməsində buraxılış imtahanında iştirak edən 9-cu sinif şagirdlərinin 55.85 faizi ana dili fənni üzrə, 57.98 faizi riyaziyyat fənni üzrə "2" və "3" qiyməti alıblar. Həmin bölmədə ana dili fənni üzrə şagirdlərin 44.15 faizi riyaziyyat fənni üzrə isə 42.02 faizi "4" və "5" qiyməti alıb. Rus bölməsində isə buraxılış imtahanında iştirak edən 9-cu sinif şagirdlərinin 45.56 faizi ana dili fənni üzrə, 44.16 faizi riyaziyyat fənni üzrə "2" və "3", ana dili fənni üzrə şagirdlərin 54.44 faizi, riyaziyyat fənni üzrə isə 55.84 faizi "4" və "5" qiyməti alıblarsa, 11-ci siniflər üzrə ortalama qiymətlərdən belə görünür ki, ana dili üzrə 2 qiyməti alanların sayı ingilis dilindən 2 alanların sayından çoxdur. Ana dilindən "5" qiyməti alanların faizi (20.47) isə ingilis dilindən "5" qiyməti alanların faizindən (30.2) daha aşağıdır. Yəni həm IX, həm də XI siniflərdə şagirdlərin ingilis dilindən nəticələri digər fənlərlə müqayisədə yaxşıdır".

**Dövlət orta məktəblərində ingilis dili bölmələrinin olmadığını vurğulayan K.Əsədovun sözlərinə görə, yaxın gələcəkdə də yaradılması nəzərdə tutulmur. Bəzi özəl ümumtəhsil məktəblərində ingilis dili bölmələri fəaliyyət göstərir:** "Bütün dünyada insanlar ingilis dilini öyrənirlər. Rus bölməsinin fəaliyyəti sosial sifariş olduğu üçün vətəndaşların istəyi günü-gündən artır, fəaliyyət göstərir. Rus bölməsinin fəaliyyətinin dayandırmamasının da səbəbləri var. Belə ki, rus bölməsində təlimin keyfiyyəti Azərbaycan bölməsindəkinə nisbətən yüksəkdir. Bu, xüsusilə də ibtidai siniflərdə qabarıq müşahidə olunur. Azərbaycan bölməsində çatışmayan cəhətlərdən biri uşağın sosiallaşmasına, cəmiyyət üçün hazırlanmasına diqqət yetirilməməsidir. Onu da qeyd edim ki, rus bölmələrində də çalışan müəllimlərin 99 faizi azərbaycanlıdır. Lakin bu bölmədə çalışan Azərbaycan müəllimləri daim axtarışdadır, öz üzərində işləyir, valideynin tələbatını, sosial sifarişi mükəmməl şəkildə yerinə yetirir. Bizim valideynlər bunu dərk edir. Ona görə də uşaqlarını əlindən tutub ibtidai siniflərdə rus bölməsinə aparırlar. Hətta uşaq baxçasında da rus bölməsinə qoymağa üstünlük verirlər.



*Ekspert hesab edir ki, ingilis dilində bölmələr yaratmaq üçün kadrlar lazımdır*

Rus dili ilə yanaşı bu gün ingilis dilinə böyük tələbat var. İngilis dilinin tədrisi ilə bağlı saatların sayı da orta məktəblərin tədris proqramında rus dili ilə müqayisədə üstünlük təşkil edir. Məktəblərdə şagirdlər arasındakı apardığımız sorğunun nəticələrinə əsasən, şagirdlər öyrənmək istədikləri xarici dil kimi ən çox ingilis dilini seçiblər. Amma ingilis dilinin Azərbaycandilli məktəblərdə tədrisindəki zəiflik şagirdlərin bu dilə marağını azaldır".

**Ekspert hesab edir ki, ingilis dilində bölmələr yaratmaq üçün kadrlar lazımdır. Şagirdlərə müxtəlif fənləri ingilis dilində tədris edə bilən müəllimlər hazırlaşdırılmalıdır:** "Özəl məktəb tanıyıram ki, dərslərin tədrisi ingilis dilində olan ibtidai siniflər açılsa da, ora 4-5 fənni ingilis dilində tədris edə bilən müəllim tapılmadı. İngilis dilini bilən kadrların yetişdirilməsi vacibdir. İngilis dili dünyaya açılan pəncərədir. Bu dili bilməyən dünyada, Azərbaycanın daxilində də yaxşı karyera qurmaqda çətinlik çəkəcək. Düşünürəm ki, ingilis dilinin ibtidai siniflərdən bütöv bölüm kimi tədris olunmasına ehtiyac var və bu, Azərbaycanın kadr potensialının inkişafında mühüm rol oynaya bilər. Təhsil müəssisələrində, hətta lazım olan başqa dillərdə də bölmələr açılmalıdır. Amma dünyanın universitetlərinin çoxunda müxtəlif dilləri, hətta ölü latın dilini öyrədirlər. İtalyan, fransız, alman dillərini keçirlər. Müxtəlif dillərdə təlimin təşkili kütləvi olmur. Lakin burada məqsəd xarici dildə təlim alanların fəaliyyətinin gələcəkdə o dil istiqamətində təşkil edilməsidir. Amma bizdə hansı dildə təhsil almaqdan asılı olmayaraq sonda mütəxəssisin işsiz qalma və ya qeyri sahədə işləmə ehtimalı böyükdür. Ayrıca ingilis bölməsinin açılmasına ehtiyac görmürəm, onun yerinə ingilis dilinin tədrisində keyfiyyəti artırmaq lazımdır".

**Şəymən**

# "Yada düşdü" insanın ruhunu təzələyir

## Dərginin 2023-cü il sayında bir-birindən maraqlı, keçmişdən bu günə, bu gündən keçmişə yumşaq keçidlərlə dəyərli materiallar yer alıb




**Günümüzdə həzin, şirin xatirələri silkələyib oyadan ədəbi-publisistik nümunələrə az-az rast gəlinir. Dövrün gərginliyi bizi sel kimi qarşısına qatıb apardıqca aparır.**

Belə vaxtda ürəyəyatımlı, qəlbi titrədən yazılar görəndə, insanın ruhu təzələnir. "Yada düşdü" ədəbi-bədii, nostalji dərgisi həyatımıza rəng qatan belə nəşrlərdən biridir. Dərgini vərəqlədikcə, xalqımızın milli mənliyi, adət-ənənələri, yüksək mədəniyyəti, incəsənəti, xalqın ruhuna söykənən poeziyası, bədii nəsri göz önündə canlanır. Barmaqlar vərəqləri tez-tez çevirmək istəyir; doğma insanları görməyə, dilimizin şirinliyini içinə çəkməyə tələsirsən. "Yada düşdü" dərgisinin növbəti, 2023-cü il sayında bir-birindən maraqlı, keçmişdən bu günə, bu gündən keçmişə yumşaq keçidlərlə dəyərli materiallar yer alıb. Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın 85 illik yubileyi ilə bağlı yazıçı, "Qobustan" jurnalının baş redaktoru Pərvin "Yaşamaq zamanı, yazmaq zamanı" məqaləsiylə çıxış edib. Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, millət vəkili Qənirə Paşayeva "Azərbaycanın ilk peşəkar qadın rəngkarı" məqaləsini Əməkdar incəsənət xadimi Vəcihə Səmədovaya həsr edib. Məqalədə Vəcihə Səmədovanın həyatı, yaradıcılığı əksini tapıb, bu, öz yerində. Lakin müəllif həm də sadəcə bir neçə cümlədə böyük türk coğrafiyası və mədəniyyətinin geniş mənzərəsini verə bilib: "Vəcihə Səmədova 24 noyabr 1924-cü ildə Bakıda anadan olub. Əslən Qars azərbaycanlılarından olan atası Kərbəlayi Əli qardaşıyla birgə Qarsdan İrəvana köçüb. Bir müddət orada yaşadıqdan sonra Bakıya gəliblər. Anası Rübabə xanım isə bu şəhərə ailəsiylə birlikdə Arazın o tayından - Qum şəhərindən gəlmişdi. Kərbəlayi Əli ilə Rübabə xanım Bakının əsrarəngiz İçərişəhərində bir-birilərini tanıyıb ailə qurublar. Kərbəlayi Əli yaxşı tar çalır, könlünə düşəndə Qars mahnılarını, türk-kərkük türkülərini yanıqlı-yanıqlı zümzümə edərdi...". Bu cümlələrin oxucularda həzin duyğular oyadacağı şəksizdir. Yazıçı-publisist Rafiq Tağızadənin "Milli-mənəvi sərvətimiz - Rafiq Əliyev", fəlsəfə üzrə fəlsəfə doktoru Rübabə Şirinovanın ""İctimai xadim, el ağsaqqalı Qənbər Şəmşiroğlu", Barat Vüsalın "Yaxşı ki dünyada nənələr varmış", Zəkiyə Babayeva-Əbilovanın "Fərid Ələkbərli dünya tibb tarixi alimlərinin gözündə" və sair məqalələr, Ramiz Mövsümün "Şair Hüseyn Hüseynzadənin oğul dağı" elegiyası, Xalq şairi Sabir Rüstəmxanlının "İnansa, Təbriz deyil" şeiri və dərgidə yer alan digər hekayə, şeir, unudulmaz xatirələr ədəbi mühitin rəngarəngliyini təmin edir. Təsisçi Nəzakət Məmmədliyə və redaksiya heyətinə dərginin növbəti saylarını da bu cür maraqlı və oxunaqlı tərtib etmələrini arzulayırıq.

**Məlahət**

# Narahatlığa səbəb iş yerinin itirilmək qorxusudur

## "Diplomlu, lakin bilik və bacarıqsız müəllimlər var"

**"Sertifikasıyanın ilkin mərhələsindən xeyli müddət keçməsinə baxmayaraq, hələ də müəyyən müəllimlər arasında narahatlıq və narazılıq sovuşmaq bilmir".**

Bunu "Şərq"ə təhsil eksperti Nadir İsrafilov 60 yaşı tamam olan müəllimlərin sertifikatlaşdırmadan azad olunması barədə danışarkən söyləyib. Onun sözlərinə görə, narahatlığa əsas səbəb isə hər şeydən əvvəl iş yerinin itirilməsi qorxusudur: "Baxmayaraq ki, dəfələrlə rəsmi qaydada bəyan olunub ki, sertifikasiyanın məqsədi heç də kimisə işdən çıxarmaq deyil. Müəllimləri daim inkişafda saxlamaq, səriştəli müəllimlərin seçilməsi və qiymətləndirilməsi zamanı onların əməkhaqqına differensial yanaşmaq əsas şərtdir. Yəni bu prosedura digər yanlış prizmalardan yox, müəllimin daim öz üzərində işləməsi və peşə fəaliyyətinə məsuliyyətinin artırılmasına xidmət edən bir vasitə kimi baxılmalıdır. Ən çox rahatsız olan zümrə diplomu dövlət nümunəli olmayan şəxslərdir. Həmin müəllimlər də Diaqnostik Qiymətləndirmədən fərqli olaraq, sertifikatlaşdırılma prosesinə



cəlb olunacaqlar. Artıq onlar üçün bu barədə məhdudiyyət yoxdur. Diplomu dövlət nümunəli olmayan müəllimlər də (saxta diplom) təhsilverənlərin sertifikatlaşdırılması prosesində iştirak edə biləcəklər. Nazirin də qeyd etdiyi kimi, əlində hüquqi baxımdan diplomlu, lakin bilik və bacarığı yerində olmayan müəllimlər də var. Belə hallar az deyil. Ona görə də indi fokuslandığımız məsələ daha çox tədrisi aparan təhsilverənin biliyinin olmasıdır. Hazırkı məntiqimizə görə, müəllim sertifikasiyada iştirak edərək, öz bilik və bacarığını sübut edə bilirsə, onu məktəbdə saxlayırıq. Müəllimlərin peşəkarlıq səviyyələrinin və peşə yararlılıqlarının yoxlanılması məqsədinə xidmət edən bu vacib prosedurun daha da təkmilləşdirilməsi istiqamətində verilən istənilən təklifə hörmətlə yanaşılmalı və təqdir olunmalıdır. Qaydalara əsasən, sertifikasiya hər 5 ildən bir keçirilir. Azərbaycan Respublikası Əmək Məcəlləsinə əsasən, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi 65-dir. Bu aralıqda yaşlı və kifayət qədər təcrübəyə malik müəllimi narahat etməyə nə lüzum qalır?!".

Qeyd edək ki, millət vəkili Vüqar Bayramov sosial şəbəkə hesabında yazıb:"Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında "Əmək Məcəlləsi" və bir sıra müvafiq qanunlara təklif edilən dəyişikliklər müzakirə edildi. Layihələr komitə tərəfindən dəstəkləndi və plenar iclasa tövsiyə olundu. Yeni dəyişikliklərə əsasən, ümumtəhsil müəssisələrində 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür. Yeni dəyişikliklər qəbul olunandan sonra əgər orta məktəbdə çalışan müəllimin yaşı 60-dan çoxdursa, o, heç bir halda məcburi sertifikatlaşdırmaya cəlb edilə bilməz. Bu halda müəllim yalnız öz istəyi ilə sertifikatlaşdırmada iştirak edə bilər".

**Sucayət**



# "Toppuş bacı"nın ən vacib arzusu reallaşdı

**Mərhum Əməkdar artist Tünzalə Əliyevanın həyat yoldaşı Röyal onun sağlığında həyata keçirə bilmədiyi arzusunu reallaşdırıb.**

"Şərq" xəbər verir ki, bu barədə o, aktrisanın instaqram səhifəsində məlumat paylaşıb. Röyal bildirib ki, qızı Zəhra ilə birgə Həccə yollanıblar: "Biz söz vermişdik ki, üçümüz Həccə gedək. Amma qismət olmadı. Biz qəlbimizdə səninlə getdik, daim əlindən tuturmuşsan kimi təvaf etdik. Qızımız gənc yaşında hacıxanım oldu. Səni hər zaman sevdim, sevəcəm. Mənim nur üzlü həyat yoldaşım. Bizi o gözəl torpaqlara göndərən hər kəsə minnətdarıq".

**Samirə Ərəblinskaya**

**Elanlar**

Sumqayıt şəhər 17 saylı Zülfi Hacıyev adına orta məktəbin məzunu Nəsirli Könül Nəsrəddin qızına 2000-ci ildə təqdim olunan attestat itdiyi üçün etibarsız sayılır.

Kərimov Aqil Abbasəli oğluna məxsus Bakı şəhəri, Binəqədi rayonu, 9 mkr, Mir Cəlal küç. 145 ünvanında inşa edilən Aqana servis MMC-yə məxsus yüksəkmərtəbəli yaşayış binasının blok B, 8-ci mərtəbə, 60.4 m2, 45 saylı, 1 otaqlı mənzilin maliyyə arayışı və müqaviləsi itdiyi üçün etibarsız sayılır.

# Özünüzdən əl çəkin!



**Aləmdə Nəsib**

**Bunu sərin mehin saçlarımı oynatdığı, Ayın ətrafı işıqlandırdığı bir yaz günündə parkda köpəyin arxasınca büdrəyə-büdrəyə qaçıb oynayan qızcığazın gülüşlərinin sədası altında yazıram.**

İnsan bəzən özünü rahat buraxmalı, öz yaxasından əl çəkməlidir. Yorulmaq, dincəlmək istəmək, lap hər şeydən uzaqlaşıb özünlə, dörd divar və ya təbiətlə baş-başa qalmağa icazə verməlidir. Biz isə çox vaxt əksini edirik. Elə özümüz özümüzə qənim kəsilirik.

Özüm də daxil olmaqla hər kəsə demək istəyirəm ki, özünü rahat burax, əl çək özündən! Sən insansan, əmrləri yerinə yetirən alət deyilsən.

İnsanlar var, işlətdikləri, bütün günü hansısa əməliyyatların icrası üçün yorduğu əşyalara da sevgi ilə yanaşır, qayğı göstərib əzizləyir, dincə qoyur. Bizim isə hirs, eqo gözümüzü elə örtür ki, öz bədənimizə, ruhumuza belə qayğı ilə yanaşmır, hörmət etmirik. Məncə, orqanizmimiz qocaldığı, yorulduğu üçün yox, elə bu kobud rəftarımızın qarşılığı olaraq 30 yaşdan sonra kövrəlir, daha çox xəstələnir. O, etirazını bu cür izhar edir. Biz isə onu anlamır, hələ sadəlövhlük edib dərmanlarla susdurmağa çalışırıq. Yəqin, preparatlara reaksiya verməyən, nə qədər müalicə olunsa da şəfasını tapmayan bir çox xəstənin bədəni, ruhu ona qarşı edilmiş hörmətsizliyə susmaq fikrində olmur. Anlaşılana, ürəkdən duyulana qədər sağalmamaqla etirazını davam etdirir.

Nə isə... Sözümün canı ondadır ki, bu beş günlük dünyada özünüzü rahat buraxın. Bəlkə də hər şey olacağı kimi olmur, amma çox şey necə olmalıdırsa, elə də olur.

Heç fikir vermisinizmi, bəzən yola vaxtında çıxırsan. Yolunun üstündə bütün işıqforlarda "qırmızıya düşürsən". Gəliş vaxtını hesablayıb çıxdığın qatara gecikirsən. Sən dayanacağa çatanda minməli olduğun avtobus tərpənmiş olur. Bəzən də proseslər tamamilə əksinə inkişaf edir. Sanki bütün kainat gücünü sənin üçün səfərbər edir və istədiyinə, hətta təsəvvüründən daha artığına nail olursan...

Öz təcrübəmdən bilirəm, bu həqiqət haqqında uzun-uzadı düşündükdən, barışıq əli uzatdıqdan sonra dünya gözündə dəyişməyə başlayır. Məqsədlərində də, mübarizə üsullarında da müdrikləşirsən. Bu məsələlərdə hələ də eqosuna xidmət edən adamları isə izləməkdən və yola verməkdən başqa əlindən bir şey gəlmir.

Yeri gəlmişkən, bir zamanlar lap təhqir kimi qəbul etdiyim bu ifadə - "yola vermək" bu gün mənim üçün rahatlığın, dincliyin konkret təsvirinə çevrilib. Heç bilmirəm onda yatan böyük mənanı sözlərlə necə yan-yana düzüm. Bircə onu bilirəm ki, bu həyatda sağlam, uzun ömür yaşayan adamlar özləri ilə işi olmayan, başqalarını da çox yaxşı formada yola verməyi bacaran adamlardırlar.

Monoloqumu isə Şəms Təbrizinin bu fikri ilə yekunlaşdırıram: "Düzenim bozulur, hayatım alt üst olur diye endişe etme. Nereden biliyorsun hayatın altının üstünden daha iyi olmayacağını?".

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1109



## Qəbələdə 12 milyon manata villa satılır

Dəbdəbəli mülk 2 mərtəbədən və 11 otaqdan ibarətdir

**Qəbələdə 12 milyon manata villa satılır.**
Metbuat.az xəbər verir ki, bu barədə elan saytlarında birində məlumat paylaşılıb.
Belə ki, Qəbələ şəhəri sağlamlıq mərkəzinin yanında yerləşən villa 500 sot torpağın içində tikilən, 1800 kv/m sahəsi olan dəbdəbəli mülk 2 mərtəbədən və 11 otaqdan ibarətdir. Villa tam təmirli və əşyalarla təmin olunub. Həyətində dekorativ ağaclar və meyvə ağacları var. Evin qapalı və açıq hovuzu, saunası, kinoteatrı və idman zalı da var. Mülkün sahibinin kimliyi bilinmir.

## Kollina Bakıya gəldi





**Məşhur italiyalı hakim Pyerluici Kollina Bakıya gəlib.**
Bu barədə AFFA-dan məlumat verilib. Federasiya italiyalının gəlişinin onlarla bir əlaqəsi olmadığını da açıqlayıb. Kollinanın Azərbaycana gəlməsinin səbəbi isə bəlli deyil.

## 4 əlamət təhlükəlidir

Ürək problemləri olduqda, həmişə səhər saatlarında yorğunluq hissi yaranır



**Bir çoxumuzun diqqət yetirmədiyi bu 4 əlamət ürək- damarlarımız üçün çox təhlükəlidir.**
"Medicina" xəbər verir ki, Rusiyalı həkim - kardioloq Yuriya Pikşinin sözlərinə görə, daimi yorğunluq, pilləkənlərə qalxdıqdan sonra şiddətli nəfəs darlığı, zəif iştahla iş günündən sonra çox adamı narahat edir. Bu əlamətlərdən biri ürək problemi ilə bağlı ola bilər. Təhlükəli simptomlardan hesab edilən siqnallar bunlardır: Səhər çağı və gün ərzində tez-tez zəiflik, yorğunluq. Kardioloq vurğulayır ki, ürək problemləri olduqda, həmişə səhər saatlarında yorğunluq hissi yaranır. Minimum hərəkətdə belə nəfəs darlığı. Uzanmış vəziyyətdə nəfəs almaq çətinləşir. Bəzi insanlar hətta eyni vaxtda 2-3 yastıqda və ya yarı oturaq vəziyyətdə yatmalı olurlar. Tez-tez başgicəllənmə - qanda oksigen çatışmazlığından yaranır. Ayaqların şişməsi. Ayaqların çox şişməsi, ölçüsünün artması, rənginin göyərməsi və əl - ayaqın soyuq olması artıq qanın aşağı ətraflara pis dövr etdiyini göstərir.



# Dəhşətli rəqəmlər açıqlandı

## Uşaq evliliklərindən xilas üçün daha 300 il lazımdır

**BMT-nin Uşaqlara Yardım Fondu - UNICEF erkən nikahların sayının dünya üzrə azaldığını, lakin bu dəhşətli mənzərənin tamamilə aradan qalxması üçün daha 300 il müddət gərəkdiyini açıqlayıb. Uşaqların evliliyə cəlb edilməsi əsasən Afrika ölkələrində geniş yayılıb. Bu, gender problemləri, qanunların zəif, gücsüz olması, yoxsulluq, aclıq, qıtlıq kimi qlobal sosial və iqtisadi amillərdən qaynaqlanır.** "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, UNICEF-in hesabatında bu problemin həllinin 2030-cü ilədək mümkün olmayacağı qeyd edilir. Hesabatı tərtib edən Claudia Cappa "müsbət olan budur ki, erkən nikahların sayı bütün dünyada azalır. Son 10 ildə erkən nikahlar ümumi nikahlarla müqayisədə 19 faiz azalıb. Lakin bu göstərici erkən nikahlar probleminin 2030-cu ilədək ortadan qaldırılması hədəfinə çatmaq üçün yetərli deyil. 18 yaşından kiçik qızların evləndirilməsi hər il davam edir. Müəyyən dəyişikliklər edilməzsə, erkən nikahların aradan qaldırılması üçün daha 300 ilə ehtiyacımız olacaq", deyib. BMT hazırda yaşayan 640 milyon qız uşağının və qadının 18 yaşdan əvvəl evləndirildiyini və hər il 12 milyon qız uşağının zorla evləndirildiyini təxmin edir. Mütəxəssis hesab edir ki, erkən evliliklərin səbəbləri müxtəlif ərazilərdə fərqlidir. Lakin əsas səbəblər demək olar eynidir: yoxsulluq, kopyalanmış qanunlar, gender bərabərsizliyi və evlilikdən xaric hamiləlik qorxusu erkən nikahları tətikləyir. Claudia Cappa hətta qlobal iqlim dəyişikliklərinin də erkən nikahları qaçılmaz etdiyini deyib: "Sağlamlıq problemləri, münaqişələr, təbii fəlakətlər ailələrə yoxsulluq və gərginlik gətirir, belə vəziyyətdə qız uşaqları üçün təhlükələr də artır. Çətin maddi duruma düşən ailələr qız uşaqlarını evləndirməyi böhrandan çıxış yolu kimi görür". Hesabatda qeyd olunur ki, erkən nikahların 45 faizi Cənubi Asiya ölkələrinin payına düşür. Lakin bu ölkələrdə də son illərdə qız uşaqlarının erkən yaşda evləndirilməsi sayında azalma müşahidə edilir. Xüsusən Hindistanda bu məsələdə irəliləyiş var. Səhraaltı Afrikada isə hər 3 qadından biri 18 yaşdan əvvəl nikaha cəlb edilib. Uşaq evliliklərinə ən çox rast gəlinən Qərbi və Orta Afrika ölkələridir. Uşaq evlilikləri yoxsul ailələr arasında artır, bundan qazananlarsa varlılardır. C.Cappa bildirib ki, Afrikada inkişafa nail olmaq mümkündür. Ruanda və Efiopiya buna örnəkdir. Uşaq evliliklərinin qarşısı iqtisadi yardımlarla alına bilər.







**Məlahət Rzayeva**

## Lopezin anası 20 il dua edib

Dünya ulduzu Ben Afleklə münasibətini bərpa edib



**Uzun illər sonra Ben Afleklə münasibətini bərpa edib ailə quran dünya ulduzu Cennifer Lopezin anası bu haqda açıqlama verib.**
**"Şərq" xəbər verir ki, Lopezin anası qızının Benlə yenidən bir araya gəlməsi üçün uzun illər dua etdiyini söyləyib.**
**"Hər zaman bir araya gələcəklərini bilirdim. Çünki 20 il dua etdim", - deyə Lopezin anası vurğulayıb.**

**Samirə**

## Aktrisa Madridə köçüb

Qalmaqallardan sonra Hollivudu tərk etdi



**Hollivud ulduzu Conni Deppin keçmiş həyat yoldaşı, amerikalı aktrisa Ember Hörd Hollivudu tərk edib.**
**Bu barədə "Daily Mail" nəşri məlumat yayıb. Bildirilib ki, aktrisa Madridə köçüb. Aktrisanın rəfiqəsinin nəşrə verdiyi müsahibədə Emberin yaxşı layihə təklif olunacağı təqdirdə qayıda biləcəyi yazılıb.**
**Məlum olub ki, aktrisa ötən ilin iyulunda Kaliforniyadakı evini 1,1 milyon dollara satıb. O, bir neçə gün əvvəl qızı Una ilə İspaniyada parklardan birində görüntülənib.**
***Qeyd edək ki, keçən ilin iyunun 2-də münsiflər heyətinin qərarı ilə Ember Conniyə qarşı böhtan atmaqda təqsirli bilinib və ondan keçmiş həyat yoldaşına 15 milyon dollar təzminat ödəməsi tələb olunub.***

## Tərəf müqabili oldular



**Türkiyəli aktrisa Hazal Filiz Küçükkösenin yeni layihəsi bəlli olub.**
**Axşam.az xəbər verir ki, aktrisa "Üvey anne" serialında rol alacaq. Ekran işində aktyor Ahmet Kutsi Karadoğan da baş rollardan birini ifa edəcək.**
**Layihədə aktrisalar Aslı Tandoğan və Ayşegül Günayın da çəkiləcəyi istisna edilməyib.**



# Marsa ancaq qadınlar göndəriləcək

## Çünki qadınların kişilərə nisbətən geriyə dönə bilmək imkanları daha yüksəkdir

**"Scientific Reports" elmi jurnalının araşdırmasına görə, Marsa göndəriləcək ilk astronavt heyətinin tərkibi bütünlüklə qadınlardan ibarət olacaq. Bunun səbəbi qadınların kişilərə nisbətən daha az vasitələrdən istifadə etməsi və geriyə dönə bilmək imkanlarının daha yüksək olmasıdır.**
"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, kosmik sahə mütəxəssisləri Marsa göndəriləcək astronavtların seçiminin çətin olacağını hesab edirlər. Marsa uçmaq istəyənlər bir daha geri dönməmək təhlükəsini gözə almalı, təxminən 7 ay müddətində qapalı kosmik gəmidə qalacaqlarını bilməli və buna təkcə fiziki deyil, psixoloji cəhətdən də hazır olmalı, yüksək səviyyəli təlim keçməlidirlər. Son araşdırmaya görə, Marsa göndəriləcək heyətdə qadınlar təmsil olunmalıdır. Fransanın Məkan Fiziologiyası Tibb İnstitutunun professoru Jonatan P.R.Skotun rəhbərliyi altında çalışan beynəlxalq heyət Marsa başlanğıcda məhz qadın astronavtların göndərilməsi versiyası üzərində dayanıb. Kişi astronavtlarla qadınların fərqini araşdıran heyət qadınların oksigen və ümumi enerji sərfiyyatı, karbondioksid, istilik və su ehtiyatlarından qadınların daha az istifadə etdiyini müəyyənləşdirib. Qadınların infarkt keçirmək ehtimalı da kişilərə nisbətən çox aşağıdır. Həmçinin qadın hormonları radiaktiv şüalanmaya qarşı da daha dayanıqlıdır. Buna görə də qadın astronavtlar daha avantajlı hesab edilib. Bundan əlavə, Marsda qurulması planlaşdırılan yaşam sahəsi modullarının əgər sakinlər qadınlar olacaqsa, daha kiçik ölçülərdə tərtib edilə bilər. Bütün bunlar Marsa ilk səyahət edəcək astronavtların məhz qadınlar olması ehtimalını artırır. Bənzər araşdırmalar təqribən 70 il öncə - 1950-ci illərdə NASA tərəfindən də aparılıb. Və qadın astronavtların kişi astronavtlara nisbətən daha üstün olması dəqiqləşib.

**Məlahət**

## Ev yox, ilan yuvası alıbmış

42 yaşlı qadının həyatı kabusa dönüb



**ABŞ-nin Kolorado ştatının sakini Amber Hall maklerin məsləhəti ilə geniş mənzil alıb.**
İllərlə xəyal etdiyi 4 yataq, 2 hamam otağı olan evə daşınan 42 yaşlı qadının həyatı kabusa dönüb. Məlum olub ki, aldığı ev əsl ilan yuvasıdır. Bu barədə "Milliyet.com" xəbər dərc edib. Xəbərdə bildilir ki, qadın ilk ilanı bəslədikləri köpək avtomobil qarajında olarkən görüb. İlanın həddindən artıq böyük ölçülü olması qadını dəhşətə gətirib: "Bu evin əslində ilanlar yuvası ola biləcəyini təxmin belə edə bilməzdim. Onu ilk görəndə dəhşətə gəldim. Məncə, bu, böyük ölçülü jartiyer ilanı idi. Həyatımın bir hissəsini şəxsi ev almaq üçün pul toplamağa həsr etdim. Düşünürdük ki, nəhayət öz evimizdə rahat nəfəs alacaq, zövq duyacağıq. Amma nəinki zövq almaq, ayaqyoluna da rahat gedə bilmirik. Evin hər bucağından ilanlar çıxır. Gecələr yata bilmirik. Yataqdakı ağlar ayağımıza dəydikcə, ilan zənn edirik. Yorğanı qaldırıb baxırıq. Həyatımız kabusa dönüb" , söyləyən qadın evi ilanlardan təmizləmək üçün ilan ovçusu dəvət etdiklərini və ona 1000 dollar pul ödədiklərini deyib. Lakin yenə də bir nəticə hasil olmayıb. Qadın maklerin onu aldatdığını, ilanlarla bağlı heç bir məlumat vermədən mənzili sataraq onu aldatdığını və təzminat üçün məhkəməyə müraciət edəcəyini bildirib.

**Məlahət**

## Çox yaşıl çay içmək qaraciyərə ziyan vurur



**İsrail alimləri qaraciyəri məhv edə biləcək içkinin adını açıqlayıblar.**
"Medicina" xəbər verir ki, çoxları yaşıl çayı az qala möcüzə içki hesab edir.
Yaşıl çayın tərkibindəki antioksidantlar və flavonoidlər xərçəngə qarşı mübarizəyə, maddələr mübadiləsini və hormonal səviyyələri normallaşdırmağa, beyin fəaliyyətini yaxşılaşdırmağa qadirdir. Ancaq böyük miqdarda yaşıl çay içmək orqanizm üçün təhlükəlidir.
İsrailin Kaplan Tibb Mərkəzinin tədqiqatçıları müəyyən ediblər ki, çox yaşıl çay içmək qaraciyərə ziyan vurur.
Araşdırmaya görə, yaşıl çaydan istifadə nəticəsində 100-dən çox şəxsdə qaraciyər iltihabı halı qeydə alınıb. Səbəb çay yarpaqlarında olan botanik toksinlərin təsiri və bunun nəticəsində yaranan metabolik reaksiyadır.
Tədqiqat göstərib ki, yaşıl çayın tərkibində çoxlu sayda birləşmələr olduğu üçün hansı komponentlərin qaraciyərə zərər verdiyi hələ aydın deyil. Əlavə bir risk faktoru var, insanlar bu çayı içdiyi gün bir neçə cür dərman da içir.
Tədqiqatın müəllifi, professor Stiven Melnikin sözlərinə görə, yaşıl çayın istifadəsi nəticəsində ağır qaraciyər xəstəliyi nadir hallarda baş verir.